QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 231 (6195) 24 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar

*Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.*



## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Zəngilan və Qubadlı rayonlarından görüntülər paylaşıb



Bax 2



## YAP-da "Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış" adlı videokonfrans keçirilib

Bax 6

## Rəcəb Tayyib Ərdoğan: Azərbaycan öz qərarı ilə işğal altındakı torpaqlarını düşməndən azad etdi

Bax 2



Qarabağda otuz ildir biganə yanaşılan işğalın sonra çatmasına dəstəyimizi verdik. Azərbaycanlı qardaşlarımız qərar verdilər, öz məsələlərini özləri həll etdilər və işğal altındakı torpaqlarını düşməndən azad etdilər.

## Müzəffər sərkərdə və onun şanlı zəfəri



Xalqın tarixi onun həyatının unudulmayan anlarının salnaməsidir. Bu anlar xalqın keçmişindən xəbər verir, taleyini müəyyən edir, gələcəyinə işıq salır...

Bax 4

## Milli Məclisin plenar iclasında beş məsələyə baxılıb



Dekabrın 22-də Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə 5 məsələdən ibarət gündəlik təsdiqlənib. Sonra deputatlar Razi Nurullayev, Zahid Oruc, Fazil Mustafa,...

Bax 7

## Kürşad Zorlu: Prezident İlham Əliyev bütün təzyiqlərə mərdliklə sinə gərərək böyük Qələbəyə doğru inamla addımladı

Bax 3



Dünya şöhrətli siyasi xadim, bütün türk dünyasının sevimlisi, mərhum Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmək, Ümummilli Liderin ideyalarını həyata keçirmək qətiyyən asan məsələ deyildi...

## Son 17 ilin uğurlarının ümumiləşdirilmiş mənzərəsi: Zəfər tarixi



Bax 12

## İlham Əliyev yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır



Bax 3

## Messidən dünya rekordu: Peleni geridə qoydu!



Bax 16

# Gürcüstan KİV-ləri Azərbaycan Prezidentinin MDB Dövlət Başçıları Şurasının iclasındakı nitqini geniş işıqlandırıb

*Gürcüstanın report.ge, 24news.ge, aktual.ge, gaxa.ge, interpress.ge informasiya portalları, "maestro" radio kanalı Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında söylədiyi nitqə geniş yer ayırıb.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin nitqi əsasında hazırlanmış xəbərlərdə ölkəmizdə COVID-19-a qarşı mübarizə sahəsində görülən işlər, Qarabağda gedən proseslər, erməni vandalizmi və s. barədə məlumatlar verilir.

Bildirilir ki, Azərbaycanda pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edib və bu da ölkə əhalisinin yarısını təşkil edir. Qeyd edilir ki, Azərbaycan ölkələrin vaksinlərə ədalətli istifadə imkanını təmin etmək üzrə Ümumdünya Səhiyyə Təşkilatının iştirakı ilə beynəlxalq "COVAX" təşəbbüsünə ilk qoşulanlardan biri olub. Azərbaycanda COVID-19-a qarşı peyvəndləmə dövlət hesabına və könüllülük prinsipi əsasında aparılacaq.

Azərbaycan Prezidentinə istinadla yayılan digər materiallarda ermənilərin Ağdam məscidini niyə uçurmadıqlarının səbəbi açıqlanıb. Azərbaycan Prezidenti deyib: "Ağdam şəhəri yoxdur. O dağıdılıb. Ağdam şəhərindən yarımdağıdılmış məscid qalıb. Biz maraqlananda ki, bəs onu niyə digər məscidlər kimi dağıtmayıblar, bizə deyildi ki, bu, ermənilər üçün özünəməxsus oriyentir olub".

# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Zəngilan və Qubadlı rayonlarından görüntülər paylaşıb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində ölkəmizin işğaldan azad edilmiş Zəngilan və Qubadlı rayonlarından görüntülər paylaşıb. AZƏRTAC həmin görüntüləri təqdim edir.**



# Rəcəb Tayyib Ərdoğan: Azərbaycan öz qərarı ilə işğal altındakı torpaqlarını düşməndən azad etdi



Qarabağda otuz ildir biganə yanaşılan işğalın sonra çatmasına dəstəyimizi verdik. Azərbaycanlı qardaşlarımız qərar verdilər, öz məsələlərini özləri həll etdilər və işğal altındakı torpaqlarını düşməndən azad etdilər. Bu tarixi zəfəri qəbul etməmək yolverilməzdir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Ədalət və İnkişaf Partiyasının (AKP) sədri, Prezident Rəcəb Tayyib Ərdoğan partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Gündəlikdə duran məsələlərlə bağlı fikir və düşüncələrini millət vəkilləri ilə bölüşən dövlət başçısı bildirib ki, haqlı mövqeyindən geri çəkilmək niyyətindən uzaq olan Türkiyə öz inkişaf yolu ilə getməyə davam edəcək.

Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, onlar heç vaxt kimsənin milli mənşəyinə, inanclarına, mədəniyyətinə və həyat tərzinə müdaxilə etməyiblər. Ancaq heç kimin də onların inancına, dəyərlərinə, mədəniyyətinə müdaxilə etməsinə imkan verməyəcəklər.

Türkiyənin xarici siyasət formasının dəyişmədiyini, dialoq tərəfdarı olduğunu, terrorizmlə mübarizəni qətiyyətlə davam etdirəcəyini, o cümlədən ikili standartlara qarşı olduğunu bildirən Rəcəb Tayyib Ərdoğan deyib ki, 2021-ci ildə ABŞ və Avropa İttifaqı ilə yeni münasibətlərin qurulmasını arzulayırlar.

# Ceyhun Bayramovun Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı ilə telefon danışığı olub




Dekabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramovun Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasında iştirak məqsədilə ötən həftə Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşlərin davamı olaraq, ölkəmizin Aİ ilə əməkdaşlığı, o cümlədən enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər, habelə digər qarşılıqlı maraq doğuran regional məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Müdafiə Nazirliyi: Azad edilmiş ərazilərimizdə yerləşdirilən qoşunların təminatı fasiləsiz həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı həyata keçirərək işğal altındakı torpaqlarımızı qısa müddətdə düşməndən azad etdi. Ali Baş Komandanın dəmir iradəsi, sarsılmaz qətiyyəti, xalqımızın birliyi və şanlı Ordumuzun şəxsi heyətinin şücaəti nəticəsində 44 günlük müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatdı.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin "Facebook"dakı rəsmi səhifəsində yerləşdirilən məlumatda hazırda Azərbaycan Ordusunun 30 ilə yaxın müddətdə işğal altında olan, tam dağıdılmış, viran edilmiş, heç bir infrastrukturun olmadığı və minalanmış ərazilərdə, yeni yerlərdə dislokasiya edildiyi bildirilir. Qeyd olunub ki, digər dövlət qurumları ilə yanaşı, Müdafiə Nazirliyinin rəhbərliyi də bu ərazilərdə yerləşdirilən hərbi hissələrin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində planlı və məqsədyönlü fəaliyyət göstərir.

Onu da nəzərə almaq lazımdır ki, bu işlər yüksək dağlıq, çətin keçilən yüksəkliklərdə sərt qış iqlimi şəraitində, eyni zamanda, çöl-meşə coğrafi relyefinə uyğun ərazidə icra olunur. Hərbi hissələrə, mövqe və postlara yeni yollar çəkilir, elektrik, su və qaz xətləri quraşdırılır, şəxsi heyətin yaşayışı və xidməti üçün zəruri məişət şəraiti yaradılır.

Müdafiə nazirinin əmri ilə nazirliyin müvafiq qurumlarının vəzifəli şəxsləri mütəmadi qaydada şəxsi heyətin yanında olur və şəraitə uyğun tələbatlar öyrənilir. Hərbi qulluqçular ərzaq və əşya təminatı normalarına uyğun bütün təminat növləri ilə fasiləsiz təmin olunur. Çöl şəraitində yerləşən bölmələrə əlavə çadırlar, sobalar və digər zəruri avadanlıq çatdırılır.

Müxtəlif istiqamətlərdə səyyar mobil hamam-camaşırxana xidmətləri təşkil olunur, hərbi qulluqçular isti geyim formaları, yataq dəstləri, keyfiyyətli ərzaqla təmin edilir. Dağlıq ərazidəki hərbi hissələrin şəxsi heyəti normalara uyğun olaraq yüksək kalorili əlavə ərzaq payı ilə təmin olunur. Bununla yanaşı, anbarlarda kifayət qədər ehtiyat da mövcuddur.

Azad olunmuş ərazilərdə yerləşən hərbi hissələrə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xeyli sayda ərzaq məhsullarının çatdırılması bu gün də təmin edilir. Müharibə dövründə olduğu kimi, bu təşəbbüsə qoşulan xalqımız, müxtəlif təşkilatlar, şirkətlər, ayrı-ayrı şəxslər tərəfindən Ordumuza hərtərəfli yardım edir. Əsgərlərimizə ərzaq payı normalarına daxil olmayan qida məhsulları, şirniyyatlar, fərdi gigiyena vasitələri və digər ləvazimatlar çatdırılır. Birinci vitse-prezident başda olmaqla Azərbaycan Ordusuna dəstək olan hamıya Müdafiə Nazirliyinin rəhbərliyi bir daha dərin təşəkkürünü bildirir.

Eyni zamanda, hərbi qulluqçuların sağlamlığını diqqətdə saxlamaq məqsədilə hərbi tibbi personal gücləndirilmiş iş rejimində fasiləsiz xidmət göstərir. Azad olunmuş ərazilərimizdə stasionar hərbi tibbi məntəqələr yaradılana qədər tapşırığa əsasən bir neçə istiqamətdə mobil səhra hospitalları fəaliyyət göstərir.

Qeyd edək ki, müdafiə nazirinin əmri ilə qısa müddətdə mütəxəssislərdən ibarət bir neçə komissiya hərbi birliklərdə şəxsi heyətin yerləşməsi və məişət şəraitinin yoxlanılmasını həyata keçirib. Kompleks yoxlamalar nəticəsində ümumilikdə təminat məsələlərində sistemli problemlər aşkarlanmayıb. Bununla belə bəzi cüzi nöqsanlar müəyyən edilib və aşkarlanan bu çatışmazlıqlar dərhal aradan qaldırılıb. Vəzifələrinin icrasına səhlənkar yanaşan, nöqsanlara yol verən bəzi vəzifəli şəxslər cəzalandırılıb və onlar barəsində müvafiq tədbirlər görülüb.

Bununla belə, son günlər sosial şəbəkələrdə Azərbaycan Ordusunun nüfuzuna xələl gətirən və Vətən müharibəsində əldə etdiyimiz Zəfərə kölgə salan videokadrlar yayılır və onlara məqsədyönlü şəkildə müxtəlif qərəzli şərhlər yazılır. Beləliklə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq tələbləri pozularaq Ordumuz barəsində məlumatlar yayılır, qeyri-obyektiv xəbərlərlə isə hərbi qulluqçularımızın nüfuzuna xələl gətirilir.

Bəzi sosial şəbəkə istifadəçiləri hətta hərbi qulluqçuların siqaret ilə təmin olunmaması ilə əlaqədar narazılıqları əks etdirən videolar da paylaşırlar. Bildiririk ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti üçün ərzaq payı normaları haqqında Nazirlər Kabinetinin müvafiq qərarında hərbi qulluqçuların tütün məmulatları ilə təmin edilməsi nəzərdə tutulmayıb. Bununla belə dövlət tərəfindən olunan humanitar yardımlar arasında müxtəlif növ siqaretlər də vardır ki, bunlar da tütün məmulatından istifadə edən hər bir hərbi qulluqçuya fərdi qaydada çatdırılır.

Müdafiə Nazirliyi hərbi qulluqçuların valideynləri və yaxınlarına müraciət edərək bir daha bildirir ki, onları narahat edən məsələlərlə bağlı müraciətlərini sosial şəbəkələr vasitəsilə deyil, daha operativ həll olunması üçün nazirliyin sutka ərzində fasiləsiz fəaliyyət göstərən (012) 912, (012) 538-61-31, (012) 404-76-34 telefon nömrələri vasitəsilə bildirsinlər.

# Kürşad Zorlu: Prezident İlham Əliyev bütün təzyiqlərə mərdliklə sinə gərərək böyük Qələbəyə doğru inamla addımladı

Dünya şöhrətli siyasi xadim, bütün türk dünyasının sevimlisi, məhrum Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmək, Ümummilli Liderin ideyalarını həyata keçirmək qətiyyən asan məsələ deyildi. Lakin Prezident İlham Əliyev bütün bunları məharətlə bacardı və şanlı bir zəfərlə Azərbaycanın dövlətçilik tarixində yeni bir parlaq mərhələnin başlanğıcını qoydu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Bozok Universitetinin dekanı, professor Kürşad Zorlu bildirib.



Türkiyə nümayəndə heyətinin tərkibində Prezident İlham Əliyevlə görüşünün həyatının ən xoş anlarından biri olduğunu vurğulayan Kürşad Zorlu deyib: "Prezident İlham Əliyev tərəfindən qəbul edilməyimiz Qafqazın nadir mədəniyyət mərkəzlərindən olan Şuşanın işğaldan azad olunması ərəfəsinə təsadüf etdi. Azərbaycan Vətən müharibəsi aparırdı. Olduqca məsuliyyətli günlər yaşanırdı. Bunlara baxmayaraq, Prezident İlham Əliyev bütün davranışları, qətiyyəti, dərin məntiqi və təmkini ilə Müzəffər Ali Baş Komandan olduğunu təsdiq edirdi. Dövlət başçısı Azərbaycanın zəfər qazanacağına bütün varlığı ilə inanırdı".

Professor Azərbaycan-Türkiyə münasibətlərinin inkişafının dövlətimizin başçısının fəaliyyətində mühüm istiqamət olmasını yüksək dəyərləndirib.

Türkiyəli alim daha sonra deyib: "Dövlət başçısının dillər əzbəri olan "Nə oldu Paşinyan?" ifadəsi təkcə təcavüzkar dövlətin baş nazirinə deyil, keçmiş Dağlıq Qarabağ münaqişəsini süni şəkildə yaratmaqla Azərbaycanın suverenliyini əngəlləməyə çalışan, sonrakı mərhələdə bu münaqişəni siyasi və hərbi təzyiq vasitəsinə çevirən, o cümlədən işğal altındakı torpaqları nəyin bahasına olursa-olsun Azərbaycandan qoparmaq üçün səylər göstərən bütün destruktiv qüvvələrə ünvanlanan tarixi bir mesajdır".

Professor bildirib ki, Prezident İlham Əliyev bütün təzyiqlərə mərdliklə sinə gərərək haqq mübarizəsindən bir addım da olsa belə geri çəkilmədən böyük qələbəyə doğru inamlı şəkildə addımladı. Prezident İlham Əliyevin liderlik xüsusiyyətləri Azərbaycan üçün daha fundamental inkişaf strategiyası ortaya çıxarıb. Qarşıda böyük işlər gözlənilir. Prezident İlham Əliyev bütün bu hədəflər üçün böyük intellektual potensiala malikdir.

# İspaniya portalı Xankəndinin adının necə dəyişdirilməsindən yazır



TuVozenPinares
Reysan Publicaciones

TVP Radio Portada Coronavirus Comarca Sociedad Entrevistas Gastronomía Deportes Opinión Descargas Páginas Amigas

¿Cómo Khankendi se convirtió en Stepanakert?

El presidente de la Asociación 'Unión de los Azerbaiyanos de España', Vahid Imanov, y el presidente de la Asociación de Azerbaiyanos en Valencia, Mubariz Ibrahimov, quieren que en España se conozca mejor la historia de Azerbaiyan y la de sus ciudades y territorios. Imanov es claro y rotundo:: ¡Karabaj es Azerbaiyán!

***İspaniyanın www.tuvozenpinares.com xəbər portalında "Xankəndi necə Stepanakert oldu?" sərlövhəli məqalə dərc olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məqalə İspaniya Azərbaycanlıları Birliyinin sədri Vahid İmanov və Valensiyadakı Azərbaycanlılar Birliyinin sədri Mübariz İbrahimovun fikirləri əsasında hazırlanıb.***

Müəlliflər Xankəndinin tarixi haqqında məlumat verib, Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda yerləşdirildiyini, amma Xankəndi adının yalnız sovetlər dönəmində Stepanakert olaraq dəyişdirildiyini vurğulayıblar. Qeyd edilib ki, bu addımı 1923-cü ildə Moskva tərəfindən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Sergey Kirov atıb. Diqqətə çatdırılıb ki, şəhər 20 mindən çox azərbaycanlının qətlinə şəxsən rəhbərlik etmiş, Bakıda sovet kommunist diktaturasını yaratmış Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb.

Yazıda, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, ölkəmizin bu bölgəsində yaşayan azərbaycanlıların etnik təmizləmələrə və soyqırımına məruz qalmaları, daha sonra bölgə ətrafındakı 7 rayonun - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın Ermənistan tərəfindən işğal edildiyi barədə ətraflı məlumat verilib.

Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi və işğalçı Ermənistan ordusunun bu ərazilərdən çıxarılması ilə bağlı diplomatik danışıqların nəticə vermədiyi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin icra olunmadığı bir dönəmdə Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə Ermənistan silahlı qüvvələrinin 2020-ci il iyulun 12-də Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən Tovuz rayonu istiqamətində hərbi təxribat törətdiyi bildirilib. İşğalçı Ermənistan ordusunun sentyabr 27-də isə bütün cəbhəboyu genişmiqyaslı hücuma keçməsi 44 günlük müharibənin başlanmasına gətirib çıxarıb.

Müharibə zamanı Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğalçılardan azad etdiyi və parlaq Qələbə qazandığı bildirilib. Qeyd edilin ki, 10 noyabr tariximizə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu şərəfli Zəfər Günü kimi yazılıb. Qarabağ Azərbaycandır!.

# "Infogate" agentliyi: Azərbaycan Dağlıq Qarabağdakı ərazilərinin bərpasına 1,3 milyard dollardan artıq vəsait xərcləyəcək

***Çilinin "Infogate" xəbər agentliyi "Azərbaycan hökuməti Dağlıq Qarabağdakı ərazilərinin bərpasına 1,3 milyard dollar vəsait ayıracaq" sərlövhəli material dərc edib (bax: https://www.infogate.cl/2020/12/21/azerbaiyan-gastara-mas-de-us1-300-millones-en-reconstruccion-de-sus-territorios-en-nagorno-karabaj/ ).***

AZƏRTAC xəbər verir ki, materialda Dağlıq Qarabağda şəhər və kəndlərin bərpasına, müasir infrastrukturun yaradılmasına Azərbaycanın 2021-ci il üçün dövlət büdcəsindən 2,2 milyard manat, yaxud 1,3 milyard dollar ayrılmasının nəzərdə tutulduğu qeyd edilir. Çili agentliyi diqqətə çatdırır ki, Azərbaycan hökuməti münaqişə nəticəsində və erməni işğalçılarının zəbt etdikləri torpaqlardan çıxarkən zərər çəkən elektrik, qaz və su təminatının təşkilini, həmçinin rabitəni, yolları və tarixi abidələri bərpa etməyi planlaşdırır.



infogate

Inicio › Mundo

Mundo

Azerbaiyán gastará más de US$1.300 millones en reconstrucción de sus territorios en Nagorno-Karabaj

"Para reconstruir las ciudades y aldeas, crear en ese territorio la infraestructura moderna (...) se prevé destinar 2.200 millones de manat del presupuesto nacional para 2021" señala el Gobierno de Bakú

Por Sputnik - 21/12/2020 87 0

El **Gobierno azerbaiyano asignará 2.200 millones de manat (unos 1.300 millones de dólares)** para restablecer la infraestructura en los territorios tomados bajo control durante la guerra de Nagorno Karabaj, según el presupuesto nacional para 2021 presentado en el parlamento.

**"Para reconstruir las ciudades y aldeas, crear en ese territorio la infraestructura moderna (...) se prevé destinar 2.200 millones de manat del presupuesto nacional para 2021", recoge el texto.**

# Hulusi Kılıç: İlham Əliyev yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır

Prezident İlham Əliyev böyük qətiyyət göstərərək Azərbaycana qarşı otuz il idi davam edən işğalçılığın sona çatmasına nail oldu. O, yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır. Proseslərə nəzər saldıqda görürük ki, məhz onun uğurlu siyasəti sayəsində Azərbaycan hazırda bütün sahələr üzrə dinamik inkişafın yeni mərhələsini yaşayır. Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a açıqlamasında bildirib.



Bütün Azərbaycan xalqının, eləcə də yenilməz Azərbaycan Ordusunun Ali Baş Komandan ətrafında sıx birləşərək ümummilli məsələlər naminə birlik nümayiş etdirməsini milli sərvət kimi dəyərləndirən səfir Hulusi Kılıç deyib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti təkcə Azərbaycanın haqq işinin bərpası deyil, eyni zamanda, dünyada sülhün və ədalətin qorunması istiqamətində əməli addımlara çevrildi. Bəli, nəyi nə zaman etmək lazım olduğunu hamıdan yaxşı bilən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində bir tərəfdən özünü soyuqqanlı və cəsur sərkərdə kimi təsdiq etdisə, digər tərəfdən dünya mediasının aparıcı qurumlarının qarşısında məntiqi düşüncələri və gerçəkləri əks etdirən həqiqətləri sərbəst şəkildə ifadə etməklə diqqəti cəlb etdi. Bir-birinə bağlı olan bu iki amil yenilməz Azərbaycan Ordusunun zəfər qazanmasında və bu qələbənin dünya birliyinə qəbul etdirilməsində həlledici güc oldu.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin inkişafında dinamizmi qorumaq üçün daim yeni təklif və təşəbbüslərlə çıxış etdiyini xatırladan Hulusi Kılıç qeyd edib ki, ən yaxın zamanlarda iki qardaş ölkənin diaspor təşkilatları vahid platforma üzərindən mühüm hədəflərə hesablanmış strategiyalar uğrunda birgə fəaliyyət göstərəcəklər.

Səfir deyib: "Azərbaycan xalqı xoşbəxtdir ki, hazırda dünyanı təlatümlər bürüdüyü bir vaxtda İlham Əliyev kimi yüksək intellektli, müdrik və cəsur Prezidenti var. Azərbaycanın xoşbəxtliyi Prezident İlham Əliyevin xoşbəxtliyidir. Bu mənəvi bağlılıqdan qürur duyur və Azərbaycanın işıqlı gələcəyinə inanırıq".

# Müzəffər sərkərdə və onun şanlı zəfəri



*Əli Əhmədov*
*Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi*

Xalqın tarixi onun həyatının unudulmayan anlarının salnaməsidir. Bu anlar xalqın keçmişindən xəbər verir, taleyini müəyyən edir, gələcəyinə işıq salır. İndiki nəsillərin şahidi olduğu son 30 ilin millətimizin tale salnaməsinin parlaq hadisələrlə zəngin olan səhifəsi hesab edilməyə tam haqqı çatır. Azərbaycanın dövlət müstəqilliyinin bərpası, qısa vaxtda möhtəşəm iqtisadi yüksəliş yolu keçərək müasir və qüdrətli məmləkətə çevrilməsi tariximizin əbədiyyətə qovuşan səhifələrini təşkil edir. Bu tarix xalqımızın rəşadətinin, dövlətimizin qüdrətinin təzahürləridir. Bu tarix 2020-ci ilin Vətən müharibəsində müşahidə etdiyimiz qəhrəmanlığın və şanlı zəfərin istinad nöqtəsi, ilham mənbəyidir.

Tarixi yaradanlar qüdrətli, hər şeyə qadir, xalqının taleyini dəyişdirə bilən şəxsiyyətlərdir. Həmişə belə olub. Bu gün də belədir. Gələcək də qüdrətli şəxsiyyətlərin həyat salnaməsi olacaqdır.

Azərbaycanın müasir tarixi iki qüdrətli Liderin - müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir. Bu, Qurtuluş tarixidir, Yüksəliş tarixidir, Zəfər tarixidir.

### Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Heydər Əliyev

Müasir Azərbaycan dövlətinin memarı Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapırdı. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi "mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o başa çatdıracaqdır" sözləri Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər.

Etiraf edilməlidir ki, İlham Əliyevin Ümummilli Liderin seçimini və etimadını doğrultması özünü çox gözlətmədi. Əslində 2003-cü ilin uğurlu seçki kampaniyasını Ulu öndərin seçiminin düzgünlüyünə əhalinin inamının ifadəsi hesab etmək olar. İlham Əliyevin seçki proqramının o zaman üçün kifayət qədər cəsarətli görünən 600 min yeni iş yerlərinin yaradılması, 1990-cı illərin acı hadisələrinin yadigarları olan bütün çadır şəhərciklərinin ləğv edilməsi kimi müddəaları ölkəyə böyük dəyişikliklər vəd edən yeni liderin gəlməsindən xəbər verirdi. Həyat göstərdi ki, verilən vədlər seçici rəğbətini qazanmaq naminə deyil, ölkənin həyatında sözün həqiqi mənasında yeni mərhələnin başlanması kimi möhtəşəm proqramı həyata keçirmək niyyətlərindən irəli gəlir. Cəmiyyət İlham Əliyevin timsalında yeni liderin meydana gəldiyini görür, onun seçki platformasına inam və ehtiramla yanaşırdı. Digər tərəfdən, xalq onun nümunəsində Azərbaycanda Heydər Əliyev siyasətinin davam etdirilməsinin etibarlı təminatını görürdü ki, bu da İlham Əliyevin seçki kampaniyasının uğur amilləri sırasında əhəmiyyətli yer tuturdu.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti müşaiyyət edən diqqətəlayiq uğurların iki fundamental amilə əsaslandığı iddia edilə bilər. Bunun birincisi onun Heydər Əliyev ideyalarına sədaqəti, bu ideyaların həyata keçirilməsinin etibarlı təminatçısı olması ilə əlaqədardır. Heydər Əliyevin ideyalarına və həmin ideyalara əsaslanan siyasətə dərin inam həmişə ölkəmizdə qərarlaşmış ictimai məfkurənin ayrılmaz tərkib hissəsi sayılıb və bu baxımdan Azərbaycan cəmiyyətinə təqdim edilən yeni konsepsiyanın Ümummilli Liderin ideyalarına sədaqət ruhunda formalaşması sonuncunun uğur amillərindən biri kimi qəbul edilir. İlham Əliyevin Heydər Əliyev siyasətinə həm sadiq olacağını bəyan etməsi, həm də əməli surətdə bunu sübuta yetirməsi həm onun siyasi kursuna, həm də şəxsiyyətinə hörmət və etimadın formalaşmasında vacib məqam olaraq qiymətləndirilməlidir.

İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlar qazanmasının digər fundamental əsasının onun yeni tipli, müasir təfəkkürlü siyasətçi olması ilə şərtləndiyi ayrıca qeyd edilməlidir. Ümummilli Liderin titanik səyləri nəticəsində qurulan müstəqil Azərbaycan dövlətinin 2000-ci illərin əvvəllərindən etibarən yeni iqtisadi, sosial, siyasi keyfiyyət halına keçməsi, başqa sözlə ifadə edilsə, yeni trasformasiyası aktual problem kimi öz mövcudluğunu getdikcə daha qətiyyətlə ifadə edirdi. Azərbaycan XXI əsrin dövləti olmağa hazırlaşırdı və bu tarixi şansı dəyərləndirərək həyata keçirməli olan yeni lider artıq seçilmişdi. İlham Əliyev Heydər Əliyev ideyalarını yeni dövrün çağırışları və imkanlarına maksimum dərəcədə uyğunlaşdıraraq Ümummilli Liderin qurduğu müstəqil Azərbaycanı XXI əsrin ən uğurlu gənc dövlətlərindən birinə, bəlkə birincisinə çevirməyə müvəffəq oldu. Beləliklə də Heydər Əliyevin ümidləri, xalqın etimadı bütünlüklə həyatda təsdiqini tapdı.

### Güclü dövlət hər şeyə qadirdir

Prezident İlham Əliyevin bəyan etdiyi genişmiqyaslı layihələrin uğurla həyata keçirilməsi hər şeydən əvvəl dövlətin qüdrətinin artırılmasını, onun iqtisadiyyatının gücləndirilməsini nəzərdə tuturdu. Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" şüarının ardıcıl surətdə reallığa çevrilməsi yeni dövrün daha da aktuallaşdırdığı çağırış idi. Ümummilli liderin uzaqgörənliyinin nəticəsi olan neft strategiyasının ilk bəhrələrini verməyə başlaması ölkənin həyatında möhtəşəm dəyişikliklərə start verilməsinə əlverişli imkanlar yaratmışdı. Məmnunluq hissi ilə qeyd edilə bilər ki, Prezident İlham Əliyev mövcud imkanları lazımınca dəyərləndirərək Azərbaycanın yeni güc potensialının yaradılması kimi tarixi missiyanı müvəffəqiyyətlə gerçəkləşdirməyə nail oldu. Ölkə hazırlaşdığı böyük sıçrayışı həyata keçirdi, iqtisadi inkişaf templərinə görə dünyada ilk pilləyə yüksəldi. Qısa bir vaxtda Azərbaycanın iqtisadi landşaftı ciddi şəkildə dəyişdi, bu isə öz növbəsində həm ölkə daxilində iqtisadi fəallığın artırılmasını şərtləndirdi, həm də güclü cazibədarlığı sayəsində milyardlarla xarici sərmayənin ölkə iqtisadiyyatına axmasını təmin etdi.

Neft strategiyasının sayəsində ölkəmizə daxil olan böyük maliyyə resurslarının məqsədəuyğun şəkildə idarə edilməsi və ölkə üçün ən faydalı şəkildə istifadəsi iqtisadi və maliyyə idarəetməsi sahəsində dünya miqyasında mühüm yeniliklərdən hesab oluna bilər. 2007-2008-ci illərin dünyanı bürüyən dərin maliyyə böhranının Azərbaycandan demək olar ki, yan ötməsini səsləndirən firkin əyani təsdiqi hesab etmək olar. Beləliklə, gənc Azərbaycan dövləti dünyaya iqtisadi nəzəriyyə və praktikada böyük maraq yaradan yeni inkişaf modelini təqdim etdi. Sözügedən modelin ən uğurlu təqdimatını isə ölkənin sürətli və hərtərəfli inkişafının nümunəsində nəinki Azərbaycan vətəndaşları, habelə beynəlxalq ekspertlər və maliyyə sahəsində idarəetmə nəhəngləri müşahidə edə bilirdilər.

İqtisadi və maliyyə sahəsində uğurlu idarəetmə bütün digər sahələrin inkişafına və tamamilə yenidən qurulmasına stimul verdi və lazım olan imkanları təmin etdi. Cəmi bir neçə il lazım oldu ki, Azərbaycan beynəlxalq icma tərəfindən dünyanın ən uğurlu gənc dövləti, çiçəklənən ölkə adlandırılmağa layiq görülsün. Hər birimiz Vətənimizin beynəlxalq nüfuzunun, dövlətimizin siyasi hörmətinin və beynəlxalq iştirakçılığının sürətlə artmasını böyük məmnunluqla və qürur hissi ilə izləyirdik.

Qısa tarixi zaman kəsiyində Azərbaycanın simasının bütünlüklə dəyişməsi həyata keçirilən uğurlu iqtisadi siyasətin və maliyyə idarəetməsinin diqqəti çəkən nəticəsi kimi ayrıca qeyd edilməlidir. Azərbaycan təkcə iqtisadi imkanları ilə deyil, həm də yeni siması, müasirliyi, dünya şəhərsalma praktikasına töhfələri ilə cazibədar olmuşdu. Bu isə öz növbəsində ölkənin qarşısında yeni imkanlar açırdı. Təsadüfi deyildir ki, gənc Azərbaycan dövləti qlobal əhəmiyyət kəsb edən bir sıra təşəbbüs və layihələrin mərkəzinə çevrildi. Regionun iqtisadi landşaftını köklü surətdə yeniləşdirən neft-qaz ixrac layihələri, beynəlxalq kommunikasiya layihələri və s. ölkəmizin qlobal iqtisadi təşəbbüslərinin kiçik bir hissəsidir.

Beləliklə, SSRİ-nin süqutundan sonra müstəqiliyini bərpa edən, ötən əsrin 90-cı illərinin əvvəllərinin ağır hərbi məğlubiyyətini, iqtisadi və siyasi böhranlarını yaşamağa məhkum edilmiş Azərbaycan XXI əsrin ilk onilliyində əvvəlki mirasından nəinki tamamilə xilas olmuş, habelə böyük iqtisadi qüdrətə malik ölkə kimi özünü dünyaya həm təqdim etməyə, həm də tanıtmağa nail ola bilmişdi. Heç şübhəsiz, bu böyük möcüzə idi. Dahi Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin təfəkkürünün, qətiyyətinin və uzaqgörənliyinin məhsulu olan möcüzə. Azərbaycanın 2020-ci ilin dünyaya təqdim etdiyi və çoxlarını mat qoyan möhtəşəm hərbi möcüzəsinin sirlərini axtarmağa çalışsaq, yuxarıda qeyd etdiyimiz iqtisadi möcüzənin üzərindən sükutla keçmək nə mümkün, nə də ədalətli olardı.

### Siyasətçi məharəti. Lider

Ölkənin rəhbərinin siyasi proqramının miqyası və icra perspektivləri onun liderlik keyfiyyətləri və statusu ilə bilavasitə əlaqədardır. İlham Əliyevin həm təqdim etdiyi ölkənin inkişaf konsepsiyasının miqyası, həm də hamının prezidenti olacağı ilə əlaqədar bəyanatı onun bütün xalqın lideri kimi özünüdərkinin bariz ifadəsi sayılmalıdır. Siyasətçiyə xas olan ən əsas keyfiyyətlərdən biri xalqı öz ətrafında birləşdirərək onu bəyan edilmiş siyasi proqramın icrası naminə səfərbər etməkdən ibarətdir. Bu, eyni zamanda liderin legitimliyinin və ictimai dəstəyinin miqyasının göstəricisi olmaq baxımından xüsusi əhəmiyyətə malikdir. Etiraf etmək yerinə düşər ki, prezidentliyinin elə ilk günlərindən İlham Əliyev cəmiyyəti öz ətrafında birləşdirərək elan etdiyi quruculuq və müasirləşmə proqramının icrası üçün səfərbər etməyə nail ola bildi.

İlham Əliyevin siyasətçi məharətinin mühüm göstəricilərindən biri onun uzaqgörənliyi, hədəflərin dəqiq müəyyənləşdirilməsi, uzunmüddətli dövrün əhatə edən planların işlənib hazırlanması istedadı sayıla bilər. Nümunə qismində aşağıdakıları sadalamaq mümkündür: Azərbaycanın qarşısında duran vəzifələrin həllini təmin etmək üçün dövlətin güc və qüdrətinin səbrlə və məqsədyönlü şəkildə artırılması strategiyası, ölkənin beynəlxalq imicinin yüksəldilməsi yolu ilə milli maraqlarımızın reallaşdırılmasında əhəmiyyətli beynəlxalq dəstəyin əldə edilməsi proqramı, ordunun döyüş qabiliyyətinin ciddi şəkildə yüksəldilməsi vasitəsi ilə Qarabağın işğaldan azad edməsi konsepsiyası və s. İlham Əliyevin yüksək liderlik məharəti eyni dərəcədə xarici siyasət sahəsində özünü biruzə verir. Onun xarici siyasət doktrinası beynəlxalq iştirakçılığın gücləndirilməsi, Azərbaycana yeni dostlar qazandırılması, diplomatiyada hücumçu taktikaya üstünlük verilməsi, beynəlxalq təşəbbüskarlığın artırılması və ölkənin imicinin yaxşılaşdırılması kimi bir-birini üzvi sürətdə tamamlayan 5 tərkib hissədən ibarət proqram kimi təqdim edilə bilər. Diplomatiya liderin siyasi məharətini aşkara çıxaran və ölkəyə böyük dividentlər gətirən ən incə fəaliyyət formasıdır. Qlobal meyllərin güclənməsi, ölkələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı əlaqələrinin genişlənməsi xarici siyasəti liderin özünüifadəsinin və siyasi uğurunun ən vacib amili dərəcəsinə yüksəltmişdir. Digər tərəfdən, müasir qloballaşma və informasiya texnologiyaları dövründə milli liderlər mütəmadi şəkildə beynəlxalq icmanın diqqət mərkəzində olur. Necə deyərlər, liderlər milli hüdudlardan çıxır, beynəlxalq birliyə daha intensiv şəkildə təqdim olunur və bu səbəbdən onun həm siyasi baxışları, həm davranışı daha geniş auditoriyanın müzakirə predmetinə çevrilir. Beləliklə, milli lider ölkənin beynəlxalq imicindən tutmuş onun dünya birliyində mövqeyinə qədər çeşidli parametrlərin formalaşmasında əhəmiyyətli, bəzən isə həlledici rol oynayır. Liderə təmsil etdiyi ölkəyə görə hörmət və ehtiram bəslənildiyi kimi, ölkəyə onu təmsil edən liderə görə qiymət verilməsi praktikasının geniş yayıldığı da, sirr deyildir.

Sadalanan ümumi konseptual müddəalar Prezident İlham Əliyevin xarici siyasət sahəsində liderlik məharətini və onun əməli nəticələrini dəyərləndirmək baxımından mühüm açar rolunu oynayır. Əvvəla, İlham Əliyevin xarici siyasət doktrinasının yuxarıda sadalanan prinsiplərinin Azərbaycana müstəsna dividentlər gətirdiyi hər kəsə yaxşı məlumdur.

Ardı Səh. 5

# Müzəffər sərkərdə və onun şanlı zəfəri

**8 noyabr Zəfər günü Azərbaycanın çoxyüzillik tarixinin şanlı səhifəsini təşkil edir. Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq.**

Əvvəli-Səh-4

Azərbaycanın 2012-ci ildə dünyanın ən mötəbər beynəlxalq təşkilatının - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-cu ildə isə ikinci ən çoxsaylı beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik etməsi gənc dövlətin beynəlxalq iştirakçılıq sahəsində yüksək fəallığının təkzibedilməz sübutudur. Eləcə də, ölkəmizə iqtisadi faydalar vəd edən karbohidrogen və kommunikasiya layihələrinin işlənməsi Azərbaycanın iqtisadi diplomatiyasının, möhtəşəm beynəlxalq forumların keçirilməsi humanitar diplomatiyasının, mədəniyyət sahəsində təşkil olunan tədbirlər mədəni diplomatiyasının, idman yarışları idman diplomatiyasının gözəl nümunələridir. Sadalananların hər biri ayrı-ayrı sahələrdə Azərbaycanın böyük uğurları olub, onun beynəlxalq nüfuz və hörmətinin artmasına birbaşa təsir etməklə ölkəmizin qlobal rolunun yüksəlməsinin əyani göstəriciləridir. Başqa sözlə ifadə etsək, yuxarıda qeyd olunanlar beynəlxalq həyatın ayrı-ayrı sahələrində ən mötəbər tədbirlər olmaqla əslində Azərbaycanın dünyaya yeni keyfiyyətdə təqdimatı nümunələri sayılmalıdır. Bu mənada beynəlxalq birlik İlham Əliyevi gənc, lakin kifayət qədər müasirləşmiş, beynəlxalq birliyin qabaqcıl dəyərlərini qəbul etmiş ölkənin lideri kimi tanımaq və qəbul etmək imkanı qazanmış oldu. İkincisi, İlham Əliyevin mütəmadi olaraq ən mötəbər beynəlxalq tədbirlərdə iştirakı, ən aktual diskuassiyalara qoşulması, müasir təfəkkür və dəyərlərə sahib olması onun yeni tipli milli lider imicini formalaşdırmağa əsas yaratdı. Bu isə öz növbəsində Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsində ifadə olunur. Tam məsuliyyət hissi ilə qeyd edilə bilər və qeyd edilməlidir ki, İlham Əliyevin müasir tipli milli lider kimi prezidentliyi Azərbaycanın beynəlxalq aləmdə ən uğurlu təqdimatıdır.

Azərbaycan cəmiyyəti İlham Əliyevin liderliyini sabitliyin, təhlükəsizliyin, ictimai rifahın və dövlətin qüdrətinin ifadəsi və etibarlı təminatı hesab edir. Dövlətimizin başçısı bu gün eyni zamanda milli birliyin və həmrəyliyin təcəssümü missiyasını yerinə yetirir. Bütövlükdə cəmiyyətimiz, ayrı-ayrılıqda isə hər bir vətəndaş həm ölkəmizin, həm də özünün gələcəyi ilə bağlı baxışları və ümidlərini Prezident İlham Əliyevdən, onun düşünülmüş siyasətindən ayrılıqda təsəvvür etmir.

### Sərkərdə qətiyyəti. Ali Baş Komandan

2020-ci il noyabr ayının 10-dək müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələr içərisində ən mühümləri erməni təcavüzü nəticəsində işğal edilmiş torpaqların azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası olmuşdur. Son 30 il ərzində dövlətin həyata keçirdiyi vəzifələr konkret şəraitə uyğun olaraq bu və ya digər dərəcədə dəyişikliklərə məruz qalsa da, ərazi bütövlüyünün bərpası həmişə aktuallığını qoruyub saxlamış, milli maraqların təminatının başlıca istiqaməti kimi çıxış etmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması zaman baxımından kifayət qədər çox vaxt apardığı kimi, həm də çoxşaxəli yanaşma, böyük səylər, gündəlik fəaliyyət tələb edirdi. Azərbaycan probleminin həllinə nail olmaq üçün siyasi-diplomatik səylər göstərmək, beynəlxalq vasitəçilərin missiyasına hörmətlə yanaşmaqla bərabər, münaqişəsinin nizama salınması, ədalətin bərpa olunmasında hərbi-siyasi vasitələrdən istifadə olunması ehtimalını heç zaman nəzərdən qaçırmırdı. Beynəlxalq vasitəçilərin "Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur" tezisinə qarşı Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən "münaqişənin həllinin hərbi-siyasi yolu var" tezisini irəli sürməsi yuxarıda qeyd edilən fikrin ən bariz ifadəsi sayıla bilər. Uzun illər ərzində ATƏT Minsk Qrupunun həmsədrlərinin öz missiyasına kifayət qədər məsuliyyətlə yanaşmaması və problemin həllinin diplomatik yolunu tapa bilməməsi hərbi-siyasi yolun qaçılmazlığına inamı artırırdı. Bununla əlaqədar olaraq, Azərbaycanın Silahlı Qüvvələrinin gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin və vətənpərvərlik ruhunun yüksəldilməsi aktuallığını nəinki saxlayır, həm də daha böyük məna kəsb edirdi. Azərbaycanın artmaqda olan iqtisadiyyatı ordu quruculuğunun qarşısında yeni imkanlar açırdı. Bir neçə il ərzində Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsini üstələməsi, əlbəttə hər şeydən əvvəl bu iki dövlətin imkan və resurslarının ciddi şəkildə fərqləndiyini göstərirdi. Lakin haqqında söhbət açdığımız mənzərəni yalnız imkanlar arasında fərqin nəticəsi kimi qiymətləndirmək düzgün olmazdı. Bu, daha çox seçilmiş yolun və strategiyanın məntiqi yekunu baxımından nəzərdən keçirilməlidir. Hələ Prezidentliyinin ilk illərində İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən böyük olacaq" formasında tezisini səsləndirməsi yeni hərbi strategiyanın qısa səciyyəsini ifadə edirdi. Əsrlər boyu öz ölkəsinin milli maraqlarını müdafiə etmək kimi məqsədi qarşısına qoyan sərkərdələrin atdığı ilk addım ordunu gücləndirməkdən ibarət olub. Bu xüsusda Prezident İlham Əliyevin ordu quruculuğuna həssas yanaşması tarixdən məlum olan nəhəng sərkərdələrə xas olan strateg düşüncəsinin yeni və uğurlu nümunəsi sayıla bilər və sayılmalıdır. Sərkərdənin gücü onun yenilməz ordusundadır. Ancaq dünya hərb tarixində elə bir hal olmamışdır ki, ordu sərkərdəsiz, onun strateg düşüncəsindən, müdrikliyindən və qətiyyətindən kənarda yaradılsın. Yenilməz ordu sərkərdə müdrikliyinin və qətiyyətinin ifadəsi olduğu qədər də nəticəsidir. 44 gün davam edən Vətən müharibəsində qazanılan möhtəşəm zəfər İlham Əliyevin rəhbərliyi altında dünyanın ən müasir və ən yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdi. Vətən müharibəsində əldə edilən tarixi zəfər müzəffər ordunun sərkərdəsi kimi Ali Baş Komandan İlham Əliyevin həm müdrikliyinin, həm qətiyyətinin birbaşa nəticəsi kimi yaddaşlara həkk olunub. Onun hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsindən tutmuş böyük sərkərdə qətiyyəti ilə döyüşçüləri, həm də nəinki döyüşçüləri, bütün xalqı qələbəyə səsləyən çağırışları müharibənin taleyini həll edən əsas amillərdəndir. İnanıram ki, İlham Əliyevin strateji düşüncəsi, sərkərdə müdrikliyi və qətiyyəti dünya hərb tarixinə yeni parlaq səhifə kimi daxil olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Ağdamdan xalqa müraciətində "Mən bu gün burada, Ağdamda dayanmışam. Öz ordumla, Qalib kimi" sözləri, müzəffər sərkərdənin öz qələbəsini bəyan etməsinin tarixdən məlum olan klassik nümunəsi idi. Bəli, İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə çaldı və işğaldan azad edilmiş ərazilərimizə səfər edərək möhtəşəm zəfərini bütün dünyaya bəyan etdi. Bütün dahi sərkərdələr kimi. Zəfər çaldı və yeni tarixi yaratdı.

### Zəfər

Müharibələr bəzi ölkələr üçün təcavüz məqsədi güdən təhlükəli seçim, digərlərinə görə isə dövlətin və xalqın milli maraqlarının qorunması naminə məcburi addımdır. 2020-ci il sentyabrın 27-də növbəti erməni hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycanın Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərinin azad edilməsi kimi zəruri və ədalətli məqsədlərə xidmət göstərmişdir.

Müharibə cəmiyyətin və dövlətin həyatında ən əhəmiyyətli hadisə olduğundan ölkənin bütün imkanları səfərbər edilir, xüsusi davranış normalarının seçilməsi qaçılmaz olur. Müharibənin uğurla başa çatmasını şərtləndirən əsas amillər dövlətin müharibəyə necə hazırlaşmasından, malik olduğu resurslardan, ordunun döyüş qabiliyyətindən və mənəvi ruhundan asılıdır. Lakin etiraf edilməlidir ki, istənilən hərbi fəaliyyətin başlıca uğuru hərbi strategiya anlayışı ilə əlaqədardır. Bu isə sərkərdə məharəti deməkdir. Bütün dövrlərdə hər bir müharibənin başlıca qəhrəmanı sərkərdələr olub. Ordumuzun sərkərdəsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 44 gün davam edən Vətən müharibəsinin əsas və həlledici qəhrəmanı olması təkcə Azərbaycan vətəndaşlarınının deyil bütün beynəlxalq icmanın yekdil qənaətidir. Məhz onun düzgün strategiyasının sayəsində təxminən 30 il əvvəl Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş Ermənistan ordusu darmadağın edildi, işğala son qoyuldu, tarixi ədalət bərpa edildi. Birmənalı şəkildə qeyd olunmalıdır ki, Vətən müharibəsində əldə edilən hərbi uğur İlham Əliyevin qələbəsi, onun sərkərdə düşüncəsinin və strategiyasının təntənəsidir.

8 noyabr Zəfər günü Azərbaycanın çoxyüzillik tarixinin şanlı səhifəsini təşkil edir. Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki, bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Mən Vətən müharibəsini və Azərbaycanın şanlı Zəfərini əslində xeyirin şər üstündə qələbəsi kimi qiymətləndirmək istərdim. Nəzərə alsaq ki, şər qüvvələri təkcə işğalçı Ermənistan deyil, həm də onun havadarları təmsil edirdilər, onda Azərbaycanın qələbəsinin tarixi əhəmiyyəti və mənası daha aydın təsəvvür edilə bilər. Prezident İlham Əliyevin xalqa müraciətlərində, ayrı-ayrı ölkələrin nüfuzlu media orqanlarına müsahibələrində xeyirin şərə qarşı mübarizəsi və onun qələbə ilə nəticələnməsi özünün geniş ifadəsini tapmışdır. Vətən müharibəsində şər üzərində qələbə Azərbaycan xalqının ədalətli mübarizəsinin beynəlxalq əhəmiyyətindən xəbər verir. Xeyirlə şərin mübarizəsi qədim əsatirlərin mövzusu olsa da, etiraf etmək lazım gəlir ki, şər qüvvələr müasir dünyada da mövcuddur və ona qarşı mübarizə aparılması qlobal həyatın aktual problemi olaraq qalmaqdadır. Azərbaycan regionumuza və dünyaya təhdid olan şər qüvvələri məğlub etməklə əslində dünya miqyasında sülhə və təhlükəsizliyə özünün əhəmiyyətli töhfəsini vermişdir.

Azərbaycan xalqı ölkəmizə möhtəşəm zəfər sevincini bəxş etdiyinə, erməni işğalına son qoyduğuna, Qarabağı azad etdiyinə görə dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevə dərin hörmət və ehtiramını ifadə edir. Şuşanın azad edilməsi şərəfinə, Zəfər günündə Bakının, digər şəhərlərimizin küçələrini dolduran izdiham, sevinc və bəxtiyarlıq hissləri bu hörmət və ehtiramın aydın ifadəsi idi.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük şərəf, daha böyük bəxtəvərlikdir. İlham Əliyev, özünün qeyd etdiyi kimi, xoşbəxt insandır. Xoşbəxtdir ki, həm Prezident, həm siyasi varis, həm də oğul kimi öz üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirdi. Azərbaycanın yeni, şanlı tarixin müəllifi, xalqımızın bitib tükənmək bilməyən sevinc, qürur və bəxtiyarlığının ilham mənbəyi oldu. Bu elə bir zirvədir ki, ondan yüksəyini təsəvvür etmək mümkün deyil.

Öz ölkəsinə şanlı zəfər bayramını və bəxtiyarlığını bəxş edən Prezident İlham Əliyevə xalqımızın sevgisinin, vurğunluğunun, hörmət və ehtiramının miqyasını təsəvvür etmək çətindir. Xalqın gözündə, qəlbində və düşüncələrində İlham Əliyev Qalibdir. Çoxdan gözlədiyimiz Qalib.

İndi hamının ürəyində bir istək, dilində bir söz var: Allah İlham Əliyevin və Azərbaycanın yar və yardımcısı olsun.

# YAP-da "Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış" adlı videokonfrans keçirilib








***Dekabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış" mövzusunda videokonfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov tədbirin əlamətdar gün ərəfəsində keçirildiyini bildirib.***

Əli Əhmədov möhtəşəm zəfərimizin əsas səbəbkarı olan Ali Baş Komandanımız, Prezident, YAP-ın Sədri İlham Əliyevin dekabrın 24-də doğum gününün olduğunu qeyd edərək bu münasibətlə dövlətimizin başçısını təbrik edib, gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Əli Əhmədov söyləyib ki, Azərbaycanın həyatında və tarixində qazanılan möhtəşəm uğurlar hər bir vətəndaşı ürəkdən sevindirir. 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyatında baş verən davamlı inkişaf, iqtisadiyyatın sürətli yüksəlişi, ölkənin müasirləşməsi, simasının kökündən dəyişdirilməsi, Bakıda mötəbər beynəlxalq tədbirlərin keçirilməsi düşünülmüş siyasətin uğurla reallaşmasının nəticələridir.

Baş nazirin müavini qeyd edib ki, bu gün 44 gün davam edən Vətən müharibəsində qazanılmış tarixi zəfəri qeyd etməmək mümkün deyil. Azərbaycanın Vətən müharibəsində qazandığı zəfər tariximizin ən mühüm hadisələrindən biridir. Bu Qələbə tariximizə qızıl hərflərlə yazılacaq. Məhz bunun nəticəsidir ki, indi hər bir vətəndaşımız azərbaycanlı olmasının qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən daha bir cəhət onun döyüş meydanında qan bahasına, can bahasına əldə olunmasıdır. Heç şübhəsiz, Azərbaycan bu Qələbəni qazanmaqla öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb.

YAP Sədrinin müavini qeyd edib ki, böyük qələbəmizin həlledici amili ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində Prezident İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlətimizin başçısına sonsuz inam bizim Qələbəmizlə nəticələndi. Bütün bunların fonunda, Ermənistan tərəfindən bir neçə il ərzində zəbt olunmuş və 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində işğaldan azad olundu. Əli Əhmədovun sözlərinə görə, bu Qələbə Azərbaycana sülh gətirməklə yanaşı, Cənubi Qafqazda da sülh və firavanlıq üçün də etibarlı zəmin yaradır. Qazanılan möhtəşəm zəfər Azərbaycanın beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirəcək.

Tədbirdə daha sonra Azərbaycan Respublikasının Xarici İşlər Naziri Ceyhun Bayramov çıxış edərək bildirib ki, 8 Noyabr 2020-ci il müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə daxil oldu. 30 ilə yaxın davam edən Azərbaycan ərazilərinin qonşu Ermənistan tərəfindən hərbi işğalına son qoyuldu. Müstəqilliyinin ilk günlərindən ölkəmizin üzləşdiyi bu işğal və onun ağır nəticələri barədə, işğal altında olan ərazilərimizdə həyata keçirilən etnik təmizləmə və qanunsuz fəaliyyət haqqında uzun illər ərazində beynəlxalq müstəvidə səsimizi ucaltdıq, beynəlxalq biriyi bu işğala son qoyulması üçün qətiyyətli mövqe tutmağa çağırdıq.

Nazirin sözlərinə görə, bu illər ərzində bütün beynəlxalq tədbirlərdə münaqişə ilə bağlı həqiqətlər səsləndirilir, məsələnin tarixi, hüquqi, siyasi və iqtisadi aspektləri, eləcə də Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyi davamlı şəkildə diqqətə çatdırılırdı: "Davamlı şəkildə aparılmış iş nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstək verib. Ermənistanın 27 sentyabr tarixində növbəti hərbi təxribatına cavab olaraq, Azərbaycanın Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin əmri ilə əks hücum əməliyyatı başlanıldı və rəşadətli Ordumuzun şücaəti və qəhrəmanlığı nəticəsində 8 noyabr tarixinədək ərazilərimizin bir hissəsi, o cümlədən 5 şəhər, 4 qəsəbə, və 286 kənd işğaldan azad olundu. Beləliklə də, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hüquqa uyğun olaraq mülki əhalinin müdafiəsi və ölkənin ərazi bütövlüyünün təmin edilməsi məqsədilə həyata keçirdiyi əks-həmlə əməliyyatı uzun sürən münaqişənin həllini mümkün etdi və eyni zamanda sonrakı siyasi həll üçün zəmin yaratdı".

Ceyhun Bayramov qeyd edib ki, hərbi əməliyyatlar davam etdiyi müddətdə bir çox dünya ölkələri və beynəlxalq təşkilatlar Azərbaycanın maraqlarına cavab verən mövqedən çıxış edib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləməklə yanaşı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edən və Azərbaycana qarşı hücumları pisləyən, o cümlədən Azərbaycanla həmrəyliyini ifadə edən ölkələr arasında Türkiyənin müstəsna rolunu qeyd etməklə yanaşı, Pakistan, Əfqanıstan, Bosniya və Herseqovina, Cibuti və Liviyanı xüsusilə qeyd etmək olar. Eyni yanaşma beynəlxalq təşkilatlar arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Əməkdaşlıq Şurası tərəfindən nümayiş etdirilib.

C.Bayramov söyləyib ki, 10 noyabr birgə bəyanatı ilə bölgədə yeni mərhələyə, yenidənqurma və bərpa mərhələsi, dinc birgəyaşayışın təmin edilməsi mərhələsinə qədəm qoyuldu: "Azərbaycan Prezidentinin sözləri ilə desək, əldə edilən razılaşma ilə bu gün və gələcək üçün yeni təhlükəsizlik və yeni əməkdaşlıq formatını təşkil etdik. Bu yeni reallıq nədən ibarətdir? İlk növbədə, Azərbaycan ərazilərinin onilliklərlə işğalına son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Məcburi köçkünlər öz yurdlarına geri dönməsi ilə uzun illərdir ki, öz evlərində yaşamaq hüququ pozulan insanların fundamental hüquqları həyata keçirilir. Bölgədəki bütün nəqliyyat yollarının açılması və iqtisadiyyatın bərpası Şimal ilə Cənub, Şərq ilə Qərb arasında iqtisadi-ticarət dövriyyəsinin artımına və ölkəmizin bu xüsusda rolunun gücləndirilməsinə imkanlar yaradacaq. Əlbəttə, burada ən vacib məqamlardan biri azərbaycanlı və erməni əhalisinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh və təhlükəsizlik şəraitində birgəyaşayışının təmin edilməsidir.

Azərbaycan tərəfi etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bərabər şəkildə və ayrı-seçkilik olmadan bütün Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını təmin edərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan erməni əsilli vətəndaşlarını ölkənin sosial, iqtisadi məkanına yenidən inteqrasiya etməkdə qərarlıdır. Bu baxımdan, Azərbaycan Respublikasının Konstitusiyası müvafiq hüquqi bazanı təmin edir. Bölgənin gələcək inkişafı, bərpa və yenidənqurma fəaliyyəti ilə bağlıbaxışlarımız dövlət başçısı tərəfindən açıq şəkildə ifadə olunmuş və bölgədə yeni əməkdaşlıq platformasının yaradılması ilə bağlı bəyanatlar səsləndirilmişdir. Belə bir əməkdaşlıq və işbirliyi çərçivəsi, əlbəttə bütün bölgə ölkələri üçün faydalı ola bilər. İşbirliyi çərçivəsi bölgə dövlətlərinin iştirakı iləçoxtərəfli əməkdaşlıq platformalarını təşkil edə bilər. Dövlət başçısının 10 dekabr tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə mətbuat brifinqində təqdim etdiyi bölgənin gələcək inkişafı modeli Qələbədən sonrakı yeni dövr üçün baxışları aydın şəkildə əks etdirdi:ənənəvi mövcud olan Türkiyə-Azərbaycan-Gürcüstan işbirliyi, eyni zamanda Azərbaycan-Rusiya-İran, eləcə də Türkiyə-Rusiya-İran işbirliyi çərçivələri mövcuddur.Bütün bu işbirliyi platformalarını ümumiləşdirib vahid platforma kimi təqdim edə bilərik. Əgər Ermənistan rəhbərliyi müharibədən düzgün nəticələr çıxararsa və öz əsassız iddialarından əl çəkərsə və gələcəyə sağlam düşüncə ilə baxarsa, o zaman onların da bu platformada yeri ola bilər. Bununla da, gələcəkdə bölgədə müharibə riski sıfıra endirilə bilər".

Xarici İşlər Naziri diqqətə çatdırıb ki, bu gün biz artıq konkret layihələrin, o cümlədən multimodal tranzitlayihələri və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə başlamışıq: "İşğaldan azad olunmuş bütün ərazilərin bərpası və bu ərazilərdəvətəndaşlarımızın normal həyatının təmin edilməsi üçün bütün müvafiq addımlar atılacaqdır. Məlum olduğu kimi, Prezidentin ehtiyat fondundan ayrılmış müvafiq vəsait hesabına Füzuli-Şuşa avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolunun tikintisinə artıq başlanıb. İnanırıq ki, bütün bu və gələcəkdə həyata keçiriləcək layihələr bölgəyə yeni nəfəs gətirəcəkdir. Bərpa və yenidənqurma işlərində, eləcə də öz evlərinə geri qayıdan məcburi köçkünlərə humanitar yardımın göstərilməsi məsələlərində ölkəmiz bölgədəki sülh və sabitliyə töhfə vermək niyyətində olan bütün aidiyyəti təşkilatlar, o cümlədən BMT-nin müvafiq qurumları, habelə ayrı-ayrı dövlətlərlə işləməyə hazırdır. Biz yalnız müştərək əzmkarlıq, xüsusilə dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı ilə bağlı olan beynəlxalq öhdəliklərə qarşılıqlı şəkildə tam əməl etməklə dinc, təhlükəsiz və firavan gələcəyə nail ola bilərik.

*Ardı Səh. 7*

# YAP-da "Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış" adlı videokonfrans keçirilib

Əvvəli-Səh-6

Yekunda vurğulamaq istərdim ki, bundan sonra da səylərimiz ikitərəfli və çoxtərəfli münasibətlərdə maraqlarımıza cavab verən, qarışlıqlı hörmət və bərabərhüquqluluq prinsipləri əsasında əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasına dost ölkələrin və tərəfdaş beynəlxalq təşkilatların cəlb olunması, bölgədə yeni əməkdaşlıq və inkişaf təşəbbüslərinin təşviq edilməsi ilə Azərbaycanın beynəlxalq aləmdə siyasi və iqtisadi mövqeyinin gücləndirilməsinə yönələcəkdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qətiyyətli, uzaqgörən və uğurlu siyasəti əsasında ölkəmizin davamlı inkişafı və regional, eləcə də qlobal rolunun möhkəmləndirilməsi istiqamətində səylərimiz davam etdiriləcək".

Çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirib ki, zaman göstərdi ki, yalnız Heydər Əliyev siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsini həll etmək mümkündür. Prezident İlham Əliyev məhz bu siyasətə sadiqlik nümayiş etdirərək problemin həllinə nail oldu. Bu qələbə ilə cənab İlham Əliyev böyük sərkərdə kimi adını tarixə yazdırdı.

Dağlıq Qarabağ münaqişəsinin yaranma tarixindən və problemin başladığı ilk illərdəki proseslərdən danışan Əli Hüseynli xatırladıb ki, həmin dövrdə respublikamızda qeyri-sabitlik hökm sürürdü. Xüsusilə AXC-Müsavat cütlüyü hakimiyyətə qanunsuz gəldikdən sonra ilk günlərdə strateji əhəmiyyətə malik olan Laçın rayonu işğal edildi. Bununla da, işğalçı Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlılıq yarandı. 1993-cü ilin aprel ayında Kəlbəcərin işğal edilməsi ilə bu coğrafi bağlılıq daha da genişləndi. Həmin ilin yay aylarında ölkədə siyasi böhranın dərinləşməsi torpaqlarımızın işğalının genişlənməsinə zəmin yaratdı. Belə olan halda, Azərbaycan xalqının çağırışı ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Qısa müddətdə respublikada sabitlik yaradıldı. 1993-cü ilin noyabrın ayında Ulu Öndər Heydər Əliyevin xalqa müraciəti ilə insanlar silaha sarılaraq ermənı işğalının qarşısını almaq üçün mübarizəyə başladı. Bunun nəticəsində, işğal altında olan torpaqlarımızın bir hissəsi azad edildi. 1994-cü ildə atəşkəsin imzalanması ilə ölkəmizin inkişafında, eləcə də ordu quruculuğunda əsaslı mərhələ başladı.

Birinci vitse-spikerin sözlərinə görə, bu müddətdə Ulu Öndərimiz diplomatik müstəvidə fəal siyasət həyata keçirdi. Bunun nəticəsində beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədlər qəbul etdi. Bu proses Prezident İlham Əliyevin fəaliyyəti dövründə daha da geniş miqyas aldı. Təbii ki, həmin sənədlər torpaqlarımızın hərbi yolla azad edilməsi üçün hüquqi baza yaratdı.

Əli Hüseynlinin fikrincə, bu gün Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması 1991-ci ildə müstəqilliyimizin bərpa edilməsinə bərabər hadisədir. Yeni mərhələdə regionda yeni əməkdaşlıq üçün geniş imkanların açıldığını deyən birinci vitse-spiker qeyd edib ki, Ermənistan bu tarixi şansdan istifadə etməlidir. Təhdidlərə gəlincə, Ə.Hüseynli söyləyib ki, Azərbaycanın qələbəsindən daha çox Qərbdəki erməni lobbisi, ermənipərəst dairələr narahatdır. Amma regiondakı yeni əməkdaşlıq platforması heç bir halda Qərblə, Avropa ölkələri ilə əlaqələrə problem yaratmayacaq. Onun fikrincə, heç bir qüvvə Azərbaycan-Avropa İttifaqı əlaqələrinə mane ola bilməz.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov isə çıxışında işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialı ilə bağlı fikirlərini bildirib. O Qarabağın regional innovasiya mərkəzinə çevrilməsi ilə bağlı əsas hədəf və məqsədləri açıqlayıb, bu istiqamətdə infrastruktur, institusional və elm-təhsil istiqamətləri üzrə təkliflər səsləndirib.

Ə.Muradov ölkə Prezidenti tərəfindən müəyyən edilən iqtisadi inkişaf modelinin formalaşdığını və işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın həmin modelin baza prinsiplərinə əsaslanaraq həyata keçiriləcəyini iştirakçıların diqqətinə çatdırıb. Ölkə başçısının müvafiq Sərəncamına əsasən, işğaldan azad olunan ərazilərə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyasının yaradıldığını, hazırda həmin ərazilərdə bərpa işlərinə başlanıldığını bildirib.

Ölkə iqtisadiyyatında investisiya yatırımına ehtiyacı olan region və sahələrin olduğunu deyən rektor Qarabağ iqtisadiyyatının bu baxımdan Azərbaycanın gələcək dayanıqlı və davamlı inkişafı üçün əlverişli və əvəzolunmaz şans olduğunu deyib. Professor Ə.Muradov "Rəqəmsal Qarabağ" Dövlət Proqramının hazırlanmasının, Qarabağda müasir tələblərə cavab verən yeni ali təhsil müəssisələrinin yaradılmasının, eləcə də Qarabağın simvolu olan Şuşa şəhərində "Smart city" ("Ağıllı şəhər") modelinin qurulmasının faydalı olacağını bildirib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı çıxışında bildirib ki, hazırda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə postkonflikt quruculuğu strategiyası həyata keçirilir. Bu inkişaf strategiyası işğaldan azad olunan ərazilərin reinteqrasiyası və dəyər zəncirlərinə qoşulması ilə həyata keçiriləcək.

Onun sözlərinə görə, dövlətimizin başçısının bəyan etdiyi kimi, yeni əməkdaşlıq platforması region ölkələrinin xalqları üçün böyük fayda gətirəcək. V.Qasımlı regionda həyata keçirilən layihələrlə yanaşı münaqişədən sonra yeni layihələrin də gerçəkləşməsinin əhəmiyyətini vurğulayıb və bunu slaydlarla təqdim edib. İcraçı direktor gələcəkdə həyata keçirilə bilən nəqliyyat və enerji layihələrinin önəmini diqqətə çatdırıb. Onun sözlərinə görə, Ermənistanın inkişafı Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan asılıdır.

V.Qasımlı diqqətə çatdırıb ki, ilkin mərhələdə işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər nəticəsində ölkəmizin kənd təsərrüfatında 10.4 faiz, mədənçıxarma sənayesində 5.3 faiz, emal sənayesində 4.3 faiz, turizmdə 5.5 faiz artım gözlənilir. Bütövlükdə isə, bu amil ÜDM-də 3 faiz, qeyri-neft sektorunda 5.1 faiz artımla müşahidə olunacaq.

# Milli Məclisin plenar iclasında beş məsələyə baxılıb



***Dekabrın 22-də Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə 5 məsələdən ibarət gündəlik təsdiqlənib.***

Sonra deputatlar Razi Nurullayev, Zahid Oruc, Fazil Mustafa, Əziz Ələkbərov, Siyavuş Novruzov, Sahib Alıyev, Əli Məsimli günün aktual məsələlərinə münasibət bildiriblər. 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, bundan sonra da milli birliyin qorunmasının vacibliyi vurğulanıb, Qələbədən sonra aparılacaq bərpa-quruculuq işlərinə dair təkliflər səslənib, hərbi vəziyyət zamanı gedən informasiya müharibəsində ölkə KİV-lərinin fəal iştirakı müsbət qiymətləndirilib. Həmçinin sovet dövründə indiki Ermənistan ərazisindəki dədə-baba yurdlarından deportasiya olunan soydaşlarımızın aqibətindən söz açılıb və onların hüquqlarının tələb olunmasının vacibliyinə toxunulub, koronavirusla bağlı dinləmələrin təşkilinə və digər məsələlərə diqqət yönəldilib.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. O bildirib ki, qanun layihəsində ediləcək dəyişiklik kommersiya təşkilatlarında, xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu aparılmasının təkmilləşdirilməsini nəzərdə tutur. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsini üçüncü oxunuşda təsdiqləyiblər.

Gündəlikdəki növbəti iki məsələ bir-biri ilə əlaqədar olduğu üçün həmin qanun layihələrini birlikdə təqdim edən komitə sədri Tahir Mirkişili əvvəlcə "Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikası qanununun ləğv edilməsi zərurətindən danışıb. Qeyd edib ki, 2001-ci il yanvarın 1-dək Azərbaycanda dövlət rüsumlarının, birdəfəlik rüsumların, cərimələrin, maliyyə sanksiyalarının, digər ödənişlərin hesablanmasında aylıq əməkhaqqının minimum məbləğindən istifadə olunub. 2000-ci ilin 26 dekabrında "Şərti maliyyə vahidi haqqında" Qanun qəbul edilib.

Deputatların nəzərinə çatdırılıb ki, 2008-ci ildən etibarən ölkəmizdə maliyyə sabitliyi olduğundan şərti maliyyə vahidi məbləği mütləq rəqəmlərlə əvəz edilib və Azərbaycan Respublikasının müvafiq məcəllələrində, qanunlarında, digər qanunvericilik aktlarında mütəmadi olaraq dəyişikliklər edilərək şərti maliyyə vahidi anlayışının istifadəsinin dayandırılması istiqamətində tədbirlər görülüb. Hazırda "Şərti maliyyə vahidi haqqında" Qanuna ehtiyac qalmadığı üçün bu qanun ləğv edilir.

Həmçinin şərti maliyyə vahidi anlayışına istinad edilən beş qanundan - "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlardan və Mülki Məcəllədən həmin ifadələr çıxarılır. Parlamentdə qanun layihələrinin şərhi dinlənildikdən sonra məsələlər ayrı-ayrılıqda səsə qoyulub və Milli Məclis tərəfindən qəbul edilib.

Plenar iclasda "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. Bildirib ki, birinci oxunuş zamanı ortaya çıxan suallar cavablandırılıb, deputatlar tərəfindən bu layihə ilə bağlı əlavə təklif irəli sürülməyib.

Məlumat dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşun prosedur qaydalarına uyğun olaraq səsə qoyulub və müsbət dəyərləndirilib.

İclasın yekununda "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələyə baxılıb.

Qanun layihəsini Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Bildirilib ki, müharibə şəraiti dövründə, dağıntıların aradan qaldırılmasında, o cümlədən Gəncə şəhərində, Tərtər, Bərdə və digər yerlərdə dağıntıların aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin əməkdaşları fədakarlıq nümayiş etdiriblər. FHN-nin yaradılmasının 15 illiyinə həsr olunan bu medalda milli atributlar da nəzərə alınıb. Bu medalın təsis olunması Azərbaycanın orden və medallarına yeni töhfə olacaq.

Müzakirələrdə deputat Razi Nurullayev də yeni yubiley medalının təsis edilməsini təqdirəlayiq hal kimi dəyərləndirib. Sonra deputatlar qanun layihəsini birinci oxunuşda dəstəkləyiblər.

Plenar iclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, dekabrın 21-də 2021-ci ilin dövlət büdcəsinə dair qanun layihələri, büdcə zərfi parlamentə daxil olub və deputatlara paylanılıb. Bu qanun layihələri komitələrdə müzakirə ediləcək. Bununla da Milli Məclisin iclası başa çatıb.

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR

***24 dekabr 1961-ci il - doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin - hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanların həyat yolunda-talehində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix - il, ay, gün, saat, an onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik, energetik və bütün digər canlı təbii durumu insana nəsnələr verir və genetik keyfiyyətlərlə həmin günün təsirli əlamətləri insanın həyat portretinin ilk rənglərini yaradır. BU GÜN ŞƏXSİ GÜNDÜR.***



### ŞUŞANI İŞĞALDAN AZAD EDƏN SƏRKƏRDƏ "MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM" DEYƏN ULU ÖNDƏRİN ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİ

XXI əsrin ən qanlı müharibəsinin ən qısa zamanda qalibi olan Azərbaycan dövlətinin, Azərbaycan xalqının və Milli Ordumuzun bir yumruq kimi birləşib müdrik sərkərdənin rəhbərliyi ilə göstərdiyi şücaət, qəhrəmanlıq haqqında hələ araşdırmalar davam edəcək. Hələ bu qələbənin nəticələrininin bugün görünməyən tərəfləri zamanla regional və qlobal siyasi və geosiyasi proseslərdə yerinə oturduqca, Azərbaycan tarixində və gələcək inkişafında, Türk dünyasının inteqrasiyasında siyasi, geosiyasi, mənəvi və psixoloji rolu və təsiri müxtəlif aspektlərdən təhlil olunub araşdırıldıqca Azərbaycan Prezidentinin siyasi, hərbi və diplomatik ardıcıl məqsədli strateji konseptual fəaliyyəti akademik səviyyədə analiz olunacaqdır.

Ərazisinin bir hissəsi - 20%-i işğal altına düşmüş, xalqının vətəndaşlarının təxminən 12-13%-i qaçqın və məcburi köçkün vəziyyətinə düçar olmuş, dövlətçiliyi, müstəqilliyi itirilmək təhlükəsi ilə üz-üzə, iqtisadiyyatı dağılmış və iqtisadi potensialı, nizami ordusu olmayan Azərbaycanı dünyada siyasi nüfuza sahib, müzəffər güclü orduya, funksional, stabil inkişaf edən kifayət qədər iqtisadi potensiala, regional və qlobal söz sahibi olan müstəqil, qüdrətli, qalib dövlətə çevirmək sözsüz ki, ardıcıl strateji və düşünülmüş siyasətin nəticəsidir. Ölkəmiz bugünki dünya gücləri arasında müstəqil siyasət yürütmək və seçim etmək, hətta yeni geosiyasi vəziyyət yaratmaq, Türkiyə, Qərb dövlətləri, Asiya və regional dövlətlərdə əməkdaşlıq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin strategiyasının dəqiq perspektiv plan üzrə inkişaf mərhələlərindən keçmiş və bu proses davam etməkdədir.

Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən döyüş taktikası və texnikasının əsasında güclü və dayanıqlı iqtisadiyyatın nəticəsində əldə olunmuş yüksək texnoloji və intellektual hərbi potensiala malik vətənpərvər nizami milli ordunun yaradılması üçün xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış lider amili çox vacib şərtlərdəndir. Ali Baş Komandan Prezident İlham Əliyev siyasi fəaliyyətində və karyerasında dürüst, xalqa açıq siyasət yürütdüyü üçün təkcə Azərbaycan xalqı arasında, cəmiyyətdə deyil beynəxalq ictimai rəydə də nüfuz qazanmış, öz dəsti-xəttini yazmışdır. Məhz erməni əsgər analarının bütün dünyanın gözü qarşısında Prezident İlham Əliyevə müraciət etməsi özü çox böyük mənəvi-psixoloji faktordur.

"Resurs" Analitik İnformasiya Mərkəzi olaraq müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı Azərbaycan Prezidenti İlham Əliyevin siyasi portretini keçən ad günü hədiyyəsi kimi ictimaiyyətə təqdim etmişdik. Bu ad günündə isə Fateh Sərkərdə İlham Əliyev Şuşanı və digər torpaqlarımızı İŞĞALDAN AZAD EDƏRƏK XALQA HƏDİYYƏ ETDİ - doğma vətən torpaqlarımızın azad olunmasını arzulayıb görə bilməyən azərbaycanlıların, vətən müharibəsində canından keçən bütün şəhidlərimizin ruhuna, bugünki və gələcək nəsillərə Fateh Sərkərdə İlham Əliyevin layiqli hədiyyəsi oldu.

24 dekabr 1961-ci il - doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin - hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanların həyat yolunda-talehində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix - il, ay, gün, saat, an onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik, energetik və bütün digər canlı təbii durumu insana nəsnələr verir və genetik keyfiyyətlərlə həmin günün təsirli əlamətləri insanın həyat portretinin ilk rənglərini yaradır. BU GÜN ŞƏXSİ GÜNDÜR.

Bu il gücü və zəhmətsevərliyi təmsil edir, irəliləməyə söz verir. Həmin ildə doğulanlar böyük səbirə malik, az danışan, ətrafındakı insanları səmimiliyə çağıran, öz işinin fanatlarıdır. Qapalı adam olsalar da hərdən gözəl natiqlik edirlər. Əldən zirək olduqlarına görə evi həmişə səliqəli qurulmuş olsa da tərsdirlər və uğursuzluğu xoşlamırlar. İşlərini görməyə mane olanları vurub yolundan atırlar. Həmin il torpaq ünsürlü oğlaq bürcü altında doğulanlar sözünün üstündə duran, qarşıya çıxan çətinliklərin çəkinmədən öhdəsindən gəlməyi bacaran, həyata real baxan, komfortu sevən, əliaçıq, səxavətli olsalar da pulun dəyərini bilən, onu harada necə xərcləməyi bacaran insanlardı. Onlarla ciddi mövzularda, fəlsəfi və ya maliyyə xəbərləri barədə söhbət etmək, onların gözəl yaddaşına və iti ağlına baxıb zövq almaq olar. İşgüzar oğlaqlarla birlikdə işləmək bir fərəhdir.

Vətənpərvərlik, patriotizm, yüksək ziyalılıq keyfiyyətləri ilə əhatə olunan məhəbbətdən doğulub, sevimli övlad kimi diqqət, qayğı, mərhəmət-sevgi, yüksək təlim-tərbiyə və təhsil mühitində böyüyüb formalaşmışdır.

Valideynlərini daim insanların, müraciət edənlərin, ehtiyacı olanların köməyinə tələsdiyini görən övladın, bu hal sözsüz ki, xarakter və xüsusiyyətinə öz ciddi təsirini buraxmamış deyil. Vicdanlı,ləyaqətli, vətənpərvər, qorxubilməz, cəsarətli, ağıllı fenomenal şəxsiyyət Heydər Əliyevin zəhmətkeş, sədaqətli, qayğıkeş, ziyalı Zərifə xanımın ailəsində, bu izdivacdaan dünyaya gələn İlham Əliyev sanki zamanı qabaqlayaraq böyümüşdür.

Gənc prezident İlham Əliyevin 42 yaşında dünyanın ən mürəkkəb geosiyasi regionunda və 2003-cü ildə hələ sabitliyin, inkişafın qarantına çevrilmiş bir çox meqalayihələrin işə düşmədiyi, risk faizinin çox yüksək olduğu Azərbaycana rəhbərliyə seçilməsi və bütün məsuliyyəti öz üzərinə götürməsi nümunəsi təkcə talehin nəsibi deyil, şəxsiyyəti xarakter göstəricisidir. Heydər Əliyev və Zərifə xanımın ailəsində böyümək ən böyük həyat və siyasət akademiyasını keçmək deməkdir. Lakin onun portretinin zəngin cizgi və rəng çalarları keçdiyi həyat yolunda daha dolğun mükəmməl mərhələsini keçərək öz kamil formasını almışdır.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakı şəhərindəki 6 saylı orta məktəbdə təhsil almışdır. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Oranı bitirdikdən sonra institutun aspiranturasına qəbul edilmiş, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləmişdir.1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

1995-ci və 2000-ci illərdə

Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpi-



ya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 1999-cü ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir. 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir. 2003-cü il 15 oktyabrda Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır. 2008-ci ildə yenidən prezident seçilmişdir. 2013-cü ildə üçüncü müddətə prezident seçilmişdir. .2018-ci ildə səslərin 86.03% -ni toplayaraq dördüncü müddətə Azərbaycan Respublikasının prezidenti seçilmiş və hazırda prezident vəzifəsini icra edir. O, KEÇDİYİ HƏYAT YOLUNDA BÜTÜN DÖVRLƏRDƏ ZAMANIN ÖNÜNDƏ OLMUŞDUR.

Keçən əsrdə yaşamış Hind yoqa təlimçisi və filosofu Oshonun (Bhagwan Shree Rajneesh) belə bir fikri var ki, hər hansı nəticənin nəceliyini dəyərləndirmək elmi yanaşmadır, səbəbini, yəni mövcud faktın niyəsini incələmək isə fəlsəfi yanaşmadır. Yeni fəlsəfədə sual edilir: "Bu niyə mövcuddur?". Elm isə belə sual verir: "Bu necə mövcuddur?".

## İLHAM ƏLİYEVİN SİYASİ PORTRET CİZGİLƏRİ SİYASİ PORTRETDƏN ŞTRİXLƏR

Yaxud regionun inkişaf və sabitliyində İlham Əliyev xarizmasının rolu

İlham Əliyevin doğulub, böyüyüb, təlim-tərbiyə aldığı, şəxsiyyət kimi formalaşmasında müstəsna rol oynayan ailə mühiti, təhsili və eyni zamanda sağlam və geniş dünya görüşünün kamilləşməsində Ulu Öndərin genetik kodunun daşıyıcısı olmaqla bahəm, onun siyasi məktəbinin yetirməsi, yaxud da Heydər Əliyev siyasətinin ən yaxın izləyicisi və müşahidəçisi olması faktı siyasi portret cizgisində xüsusi iz buraxmış ştrixlərdəndir.

Hətta Heydər Əliyevin həyatının rəvan olmadığı dövrlərdə istəristəməz böyük təzyiqi öz üzərində hiss edən oğul Əiyevin siyasi portret cizgilərində iz buraxan bu təzyiqlərə sinə gərmək qətiyyəti İlham Əliyevin xarakterik xüsusiyyətlərində öz əksini tapmışdır.

Mətinlik, əzmkarlıq, dözüm və iradə, Onun siyasi porterindəki xüsusi ştrix və yaxud ən böyük cizgisəbrlə, təmkinlə Qalib Gəlmək əzmi və qəti iradə nümayişidir. O, başladığı istənilən layihədə öz qalibiyyətinə, uğurlu nəticəyə böyük inamla əmindir ki, bu da onun xarizmasını şərtləndirən ən vacib keyfiyyətlərdəndir.

İrsi xüsusiyyət və fitri istedadı, eyni zamanda təlim-tərbiyə, təhsili və keçdiyi heç də rəvan olmayan həyat yolu və böyük siyasi təcrübəsinin Onun siyasi portretində dərin iz buraxmış xarakterik xüsusiyyətlərinin formalaşmasına ciddi təsir göstərdiyi daha aydın görünür.

Azərbaycan tarixinin ən ciddi, həyati əhəmiyyətli, dönüş məqamı və dönüş mərhələsinin yaşandığı bir dövrdə bu qədim xalqa rəhbərlik, sərkərdəlik etmək missiyası nəsib olmuş İlham Əliyevin geniş analitik təfəkkürü-dərin zəkanın, formalaşdığı və yaşadığı zamandövran və mühitin, keçdiyi burulğanlarla zəngin olan siyasi-həyat təcrübəsinin məcmusudur. Onun keçmiş və müasir liderlərdən bir fərqliliyi də, bəlkə də hardasa müəyyən energetik-mistik qanunauyğunluq da var ki, sanki Uca yaradan oğul Əliyevi xarakterik olaraq müasir Azərbaycan coğrafiyası üçün görəvləndirmişdir.

O, ən böyük azərbaycanlı kimi ölkənin geosiyasi, mədəni-mənəvi əksliklərin və müxtəlif sivilizasiyaların kəsişməsində yerləşdiyi üçün geniş tollerant dünya görüşü ifadə etməyi bacaran nadir siyasətçilərdəndir.

O, xaraktercə islahatçıdır, yeniliklərin mənimsənilməsi və daha da modernləşdirilib tətbiq olunmasında daim təşəbbüskardır. Eyni zamanda, xüsusən milli-mənəvi, mədəni və əxlaqi, ənənəvi dəyərlərin qorunub saxlanılmasında mühafizəkardır və bu məsələlərdə konkret münasibət ifadə etməkdən çəkinmir.

Onda Şərqin uzaqgörən müdrikliyi, qərbin təmkinli, praqmatik soyuqqanlılığı, ancaq eyni zamanda qafqazlıların da mərdliyi və istiqanlılıq xüsusiyyətləri cəmləşmişdir. Azərbaycan liderinin 24.04.2014-cü ildə Praqada keçirilən dövlət və hökümət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə beynəlxalq tribunadan "Türkiyə burada yoxdur, biz burdayıq" deyə çıxış edərək Türkiyənin müdafiəsinə qalxması onun mərdliyi, ədaləti və qətiyyəti ifadə edən şəxsi keyfiyyətlərinin göstəricisi kimi xarakterizə olunur.

O, eyni zamanda əks qütblərdə, yaxud ziddiyyətli mövqelərdə dayanan qüvvələrlə açıq faydalı dialoq qurmaq istedadına malikdir. Çünki, O, dərin analitik təfəkkürlə hadisələrin və ya situasiyanın rasional analizini verərək, praqmatik yanaşma ilə müxtəlif mövqelərin proqressiv uzlaşma nöqtələrini tapmaq zəkasına və məntiqi yanaşma ilə inandırmaq bəlağətinə malikdir.

O, vaxtilə yaşadığı Kreml mühitini də, yüksək təhsil və geniş dünyagörüşü ilə qərb dünyasını da əla tanıyır və dünyagörüşü baxımından həm moskvalıdır, həm avropalıdır, həm də asiyalıdır.

## NEFT XOŞBƏXTLİKDİRMİ?

Ərazisinin 20 %-nin işğal, əhalisinin 10%-nin məcburi köçkün halında yaşamaq məcburiyyətində qalma səbəbi müstəqilliyimizə təhdidlər fonunda Azərbaycan dövlətinin yerləşdiyi vacib strateji-geosiyasi mövqedə və neft ölkəsi olaraq tam müstəqil siyasət yürütməsi bügünki dünyanın möcüzələrindəndir. Azərbaycanın vəziyyətində olan və Azərbaycan böyüklüyündə ikinci bir ölkə yoxdur ki, müstəqil siyasət həyata keçirə bilə, həm də müsəlman ölkəsi olaraq.

"Əsrin müqaviləsi" neft kontraktlarının imzalanması böyük çətinliklərdən keçmiş, dövlət çevrilişlərinə cəhdlər, hətta sui-qəsd cəhdləri və nəhayət adı çəkilən layihənin fəaliyyətə başlaması və s. barədə mətbuatda, ictimaiyyətdə geniş məlumatlar olduğu üçün məsələyə daha çox başqa tərəfdən baxmağa çalışacağıq. Onu da yeri gəmişkən qeyd etməyi vacib hesab edirik ki, XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin 2006-cı il iyul ayının 13-də təntənəli açılış mərasimindən sonra Azərbaycan dövlətinin həyata keçirdiyi həm daxili, həm regional, sosial-iqtisadi, humanitar-mədəni layihələr baxımından, çevik, ardıcıl, sabit, sürətli və perspektiv nəticələrə hesablanmış konseptual siyasəti təhlil predmetidir.

Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyyatlarının istismarı ildən-ilə genişlənir və bunun nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir. Dünyanın enerji təminatında ölkəmizin xüsusi çəkisi və strateji əhəmiyyəti daha da yüksəlir. Eyni zamanda, "Şahdəniz" yatağında qazın istismarının genişlənməsi ilə əlaqədar Azərbaycan özünün daxili tələbatını tam ödəməklə bərabər, bu mavi yanacaq növünün beynəlxalq bazarlara ixrac etmək imakınını əldə etmişdir. 2007-ci il iyul ayının 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkəyinin qaz kəmərləri sistemine daxil oldu. Qaz nəqliyyat infrastrukturunun, xüsusilə də Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin fəaliyyəti sayəsində Azərbaycan qərbin mühüm qaz ixracatçısına və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın iri həcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edilmişdir. Belə ki, neft strategiyasının həyata keçirilməsinin ilk illərində ilk növbədə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu. Yuxarıda qeyd olunan və mövcud olan layihələrin fəaliyyət göstərməsi və bu kəmərlər ilə neft və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi kimi qəbul edilir. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Dünya ölkələri xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhvələr vermişdir.

*Ardı Səh. 10*

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR

Əvvəli-Səh-9

2012-ci ildə "Şahdəniz-2" layihəsi üzrə Trans-Anadolu qaz boru kəmərinin (TANAP) tikintisi ilə bağlı razılıq əldə edildi. Layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atıldı, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin inşaasına dair sazişlər imzalandı. 2018-ci ildə istismara verilən TANAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr olaraq kəmərin bu qabiliyyətinin 2023-cü ildə 23 milyard kubmetrə və 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. 2013-cü ilin iyul ayının 28-də "Şahdəniz" konsersiumu "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın Yunanıstan, İtaliya və Cənub Şərqi Avropadakı istehlakçılara çatdırılması üçün Trans-Adriatik qaz boru kəmərinin seçildiyini elan etdi. Uzunluğu 870 km olan və ilkin olaraq, 5.2 milyard ABŞ dolları məbləğində qiymətləndirilən TAP layihəsi Cənubi Qafqaz qaz kəmərinin (BTƏ) və Trans-Anadolu qaz kəmərinin davamıdır. Bu boru kəməri "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2014-cü sentyabr ayının 20-də isə Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirildi. Mərasimdən sonra təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilən "Cənub" Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri TANAP-ın təməlini qoydular. TANAP Yunanıstan sərhədinədək uzanacaq. "Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq, Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır.

Regionun ümumi inkişafında hətta perspektiv planda orta Asiya regionuna daxil olan ölkələrin və avropanın enerji ixracı, enerji təminatı və enerji təhlükəsizliyi layihələrində birbaşa və bilavasitə təşəbbüskar və aparıcı rol oynayan Azərbaycan dövlətinin gücü artdıqca beynəlxalq nüfuzunun da yüksəldiyini müşahidə edirik ki, o da öz növbəsində müstəqilliyimizin dönməzliyini, dövlət siyasətinin yalnız milli maraqlar üzərində qurulmasını inamla möhkəmləndirir.

Keçən dövrün təhlili göstərir ki, Azərbaycan dövləti tərəfindən yaranmış əlverişli şəraitdə çox səmərəli ardıcıl kompleks tədbirlər həyata keçirib.

### YOLLAR MƏDƏNİYYƏTLƏRİ BİRLƏŞDİRİR

Prezident İlham Əliyev tərəfindən imzalanan və vaxtında istismara verilən həm beynəlxalq avtomagistralların, həm daxili avtomobil yollarının yüksək standarta uyğun şəkildə əsaslı təmiri və bir çox hallarda yeni avtomobil yollarının tikilib istismara qəbul edilməsi trayektoriyası və xronologiyası məsələnin planlı şəkildə hansı ardıcıllıqla həyata keçirildiyinin əyani göstəricisidir. Məsələn: Azərbaycan Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi, Bakı-Şamaxı-Yevlax, Xocasən-Lökbatan-Yevlax-Gəncə, Gəncə-Qazax-Gürcüstan dövlət sərhədinədək avtomobil yolları yenidən qurulmuşdur. Bundan başqa, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci, həmçinin 2008-2013-cü illər üçün tədbirlər planlarına müvafiq olaraq, paytaxtda 26 yol qovşağı, körpü və 88 piyada keçidi tikilmiş, paytaxtətrafı kənd və qəsəbələrin inkişafını nəzərdə tutan yolların yenidən qurulması işləri aparılmışdır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 28 dekabr 2015-ci il tarixli sərəncamı yol təssərüfatında yeni dövrün başlanması kimi xarakterizə olunmalıdır. Bu sərəncamın imzalandığı vaxtdan keçən qısa dövr ərzində 4.1 milyon nəfər əhalinin yaşadığı və 1318 yaşayış məntəqəsini birləşdirən uzunluğu 3438.2 km olan avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri başa çatdırılmışdır. Ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhərində 29 yeni körpü və 19 piyada keçidi tikilmişdir. Paytaxtda görülən işlərdən danışarkən, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçidin və müxtəlif səviyyəli yol qovşağının inşaasını da xüsusi vurğulamaq lazımdır.

Qeyd edilənlərlə bərabər, 2016-cı ildə Bakl-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 km hissəsi açılmış, Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Yenikənd-Salyan rayonun ərazisindən keçən 23.4 km hissəsi istifadəyə verilmişdir. Çoxdan gözlənilən Kür çayı üzərində uzunluğu 201 m, eni 14.5 m olan yeni körpünün açılışı olmuşdur. Eyni zamanda, 87.8 km olan Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsi istismaraburaxılmışdır.

Ötən il, eyni zamanda, "40 kənd yolu" layihəsinin icrası çərçivəsində mühüm işlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafına mühüm təsir göstərən bu layihənin gerçəkləşdirilməsinin kənd yollarının tikintisinə və yenidən qurulmasına yönəldilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Layihə çərçivəsində respublikanın 34 rayonunda 1 milyon 400 min nəfər əhalinin yaşadığı 423 yaşayış məntəqəsini birləşdirən 52 kəndlərarası və Bakı şəhərinin qəsəbələrarası avtomobil yolu layihəsi, həmçinin 14 respublika əhəmiyyətli layihənin icrası uğurla reallaşdırılmışdır. Yol infrastrukturunun inkişafına xüsusi diqqət ayıran Prezident İlham Əlyev demək olar ki, bütün yolların çəkilişində və istifadəyə verilməsində şəxsən iştirak etmişdir.

Əsası 2004-cü ildə qoyulan bu layihələr əslində şimal-cənub və şərq-qərb tranzit nəqliyyat qovşağının perspektiv strateji inkişaf proqramının mühüm hissəsi kimi artıq böyük regional proyektin tərkib hissəsinə çevrilmişdir.

Eyni zamanda Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən şərq-qərb və şimal-cənub nəqliyyat dəhlizlərinun yaradılması istiqamətində böyük işlər görülmüşdür. Təməli 2007-ci ildə qoyulmuş, uzunluğu 826 km olan Bakl-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabr ayının 30-da Bakıda rəsmi açılışı olmuşdur. Bununla yanaşı 20 aprel 2016-cı ildə şimal-cənub beynəlxalq nəqliyyat dəhlizinin genişlənməsi istiqamətində ikitərəfli müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Azərbaycan tərəfi İran sərhəddində bir dəmir yol körpüsünün və uzunluğu 8.3 km olan (İran-Astara) birxətli dəmir yolu qovşağının tikintisini həyata keçirmişdir. Bununla da Azərbaycan siyasi-iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab Prezidentin təşəbbüsü ilə Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı olan Ələt dəniz ticarət limanının təməli 2007-ci ildə atılmış və 2017-ci ildə fəaliyyətə başlamışdır. Bununla paralel olaraq 2011-ci ilin mart ayında Heydər Əliyev Adına Beynəlxalq Aeroportun yenidən qurulması ilə bağlı Prezident İlham Əliyev sərəncam imzalamış, tikinti işləri sürətlə həyata keçirilərək 2014-cü ilin mart ayın 17-si yeni aeroportun inşaası başa çatmış və Bakının Heydər Əliyev Beynəlxalq hava limanı dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur. Həmçinin Azərbaycanda 7 aeroport tamamilə yenidən qurularaq istifadəyə verilmişdir ki, onlardan 6-sı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalaq hava limanı statusu almışdır.

### DÜNYA AZƏRBAYCANI YENİ RAKURSDAN TANIYIR

Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, cografi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığını, iqtisadi və informasiya təhlükəsizliyinin əsas kompenentlərindən olan telekomunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanı regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda yüksək texnologiyaların tətbiq olunmasına və ölkədə kosmik sənayenin yaradılmasına təkan verilməsi məqsədilə, "Azərbaycan Respublikasında Kosmik sahənin yaradılması və Telekommunikasiya Peykərinin orbitə çıxarılması haqqında" Prezident İlham Əliyevin 2008-ci il 04 noyabr tarixli sərəncamında Kosmik Sənayenin yaradılması və inkişafına dair Dövlət Proqramının hazırlanması nəzərdə tutulur.

Dövlətin iqtisadi və hərbi gücünün inkişafı zərurəti kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edir. Kosmik fəzanın fəth edilməsi iqtisadiyyatın və milli təhlükəsizliyin səviyyəsini müəyyənləşdirən amillərdəndir. Aerokosmik fəzada yerləşdirilmiş cihazlar və komplekslər öyrənilən obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni olan məlumatları operativ şəkildə əldə etməyi, aerokosmik laboratoriyalar isə komponentlərin, dünya okeanının, planetlərin və digər xüsusi obyektlərin öyrənilməsinə geniş imkanlar yaradır.

Prezident İlham Əliyev tərəfindən 15 fevral 2011-ci ildə xüsusi sərəncamla 2011-ci ili Turizm ili elan etdi və Azərbaycanın həm daxili avtomobil yollarının, beynəlxalq aeroportların eyni zamanda otelçilik və xidmət sahələrini əhatə edən yeni turizm infrastrukturunun əsası qoyuldu. Turizm infrastrukturunun yaradılması və eyni zamanda ölkəmizin tanıdılması xarici turistlərin cəlb olunması məqsədilə müxtəlif istiqamətlərdə işlər həyata keçirilmişdir ki, bu baxımdan Evroviziya 2012 mahnı müsabiqəsinin Bakıda keçirilməsi çox əlamətdar hadisə kimi qiymətləndirilir.

Dövlət başçısının xüsusi diqqət ayırdığı prioritet sahələrdən biri də cəmiyyətin sağlam inkişafını şərtləndirən insanlarda əzmkarlığı və iradəni formalaşdıran, fiziki sağlamlığı və sağlam rəqabəti stimullaşdırıb tərənnüm edən bədən tərbiyəsi və idman sahəsidir ki, Azərbaycan dövlətinin bu sahədə sistemli olaraq həyata keçirdiyi layihələr paketi nəticəsində ölkədə idman və bədən tərbiyəsi sürətli inkişaf prosesi keçmiş, böyük uğurlar əldə edilmişdir. Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qizil, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasinda 6 medal (1 qizil, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasinda 10 medal (2 qizil,2 gümüş,6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya oyunlarinda isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə Azərbaycan tarixində ilk dəfə keçirilən Avropa oyunlarına ev sahibliyi etmişdir. 50 ölkəni təmsil edən 6000 idmançının iştirak etdiyi oyunlarda ümumi hesabda 2-ci yer tutmuşdur, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəylik oyunlarında isə Azərbaycan kamanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

### AQRAR İSLAHATLAR

Cənab Prezidentin aqrar sektorda da keçirdiyi islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaradılması məqsədilə 2003-2008-ci illərdə meliorasiya tədbirlərinin həyata keçirilməsi üçün bir sıra imzaladığı sərəncamlarını qeyd etmək zəruridir. Ölkədə iri su anbarları, 4 min kilometrlik suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı və digər meliorativ tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19.12.2019-cu il tarixdə fərman imzalamışdır ki, bu fərmanla da ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər istiqamətində mühüm işlər görülmüş, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər göstərilməsi, həmçinin heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ardı Səh. 11

# FATEH SƏRKƏRDƏ

## *İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR*



### REGİONDA AZƏRBAYCAN FAKTORU

Əlbəttə, bütün bu layihələrin həyata keçirilməsi və uğurlu nəticəsi Prezident İlham Əliyevin cəsarətli, çevik, uzaqgörən praqmatik siyasət yürütmək bacarığı və uğurlu qələbə əzmi, iradə və qətiyyəti ehtiva edən şəxsi keyfiyyətlərinin təzahürü inikasıdır, ki, bu da təkcə Azərbaycan xalqının bugünü və gələcəyinin deyil, regionun ümumi inkişafını şərtləndirən perspektiv plan üzərində qurulmuş siyasətinin nəticəsidir. Azərbaycan dövlətinin və şəxsən İlham Əliyevin, liderliyi ilə, yaşadığımız əsrin əvvəlində regionda həyata keçirilən regional və beynəlxalq layihələr və meqalayihələr hazırda və perspektiv planda böyük bir regionun təhlükəsiz, inteqrativ iqtisadi inkişafını sürətləndirməklə bərabər Azərbaycanın beynəlxalq siyasi çəkisini artırır. Sözsüz ki, dövlətin və ölkənin iqtisadi gücü, siyasi çəkisi və nüfuzu yüksəldikcə hərbi qüdrəti də durmadan inkişaf edərək, həm şəxsi heyətin fiziki, mənəvi-psixoloji, həm peşəkarlıq səviyyəsi, həm də ən müasir texniki və hərbi təhcizatı daim inkişaf edərək ən yüksək həddə saxlanılır. Bir faktı qeyd etməklə bu sahənin necə dinamik, çevik və hazırlıqlı olduğuna diqqət çəkmək olar ki, 2018-ci il ərzində müxtəlif vaxtlarda iki dəfə hərbi parad keçirilmişdir.

Neft xoşbəxtlikdirmi sualına yenidən döndükdə, düzgün yürüdülməyən neft siyasətinin Holland sindromuna və yaxud müasir dünyada Venesuela nümunəsinə tarix şahidlik edir. Bu gün istər Afrikada, Asiyada demək olar ki, bütün neft ölkələri müxtəlif təzyiqlər altında inləyirlər. Azərbaycanda isə neft kapitalının qeyri-neft sektorunun inkişafına transmissiyası prosesi çox uğurla həyata keçirilməklə yanaşı, eyni zamanda paralel olaraq neft kapitalının insan kapitalına çevrilməsi prosesi də diqqətlə həyata keçirilir.

### AZƏRBAYCAN DÖVLƏTİNİN ƏN QIYMƏTLİ SƏRVƏTİ ONUN VƏTƏNDAŞIDIR

Həyata keçirilən bir çox sosial layihələr və bu sahəyə davamlı dövlət investisiya yatırımları vətəndaşların sosial şəraitinin yüksəldilməsi, yaşam tərzinin yaxşılaşdırılması ilə yanaşı, cəmiyyətin mədəni-intellektual səviyyəsinin daha da inkişafına hesablanmış konseptual dövlət siyasətidir.

Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiqlənməsi barədə 2013-cü il 24 oktyabr tarixli Sərəncanı böyük əhəmiyyətə malikdir. Sərəncamda dövlətimizin inkişaf konsepsiyasına uyğun olaraq, strategiyamızda davamlı, dayanıqlı və rəqabət qabiliyyətli inkişafı təmin edən, insan kapitalının inkişafına önəm verən, insan resurslarının yetişdirilməsini və idarəedilməsini gerçəkləşdirən müasir təhsil sisteminin yaradılması ön plana çəkilir. Eyni zamanda, bu konseptual sənəddə ölkəmizdə beynəlxalq standartlara cavab verən təhsil sisteminin inkişaf istiqamətləri, başlıca hədəfləri dəqiq müəyyənləşdirib, təhsil işçiləri qarşısında yeni, məsul vəzifələr qoyulub. Prezident İlham Əliyev bu məsələyə böyük önəm verərək qeyd edir: "Əlbəttə, qarşımızda duran bütün vəzifələri gerçəkləşdirməyə nail olmaq üçün bizə ilk növbədə, peşəkarlar lazımdır. Bütün sahələrdə peşəkarlar lazımdır. Hansısa mühüm bir istiqamətə peşəkar kadr gələn kimi, biz o saat müsbət dinamika görürük. Müasir dünyada ölkənin uğurunu biliklər, elm, texnologiyalar və təhsil müəyyən edir...".

Lideri xalqa sevdirən ən vacib və üstün keyfiyyətlərindən biri şəxsiyyətin insanlar, cəmiyyət və xalqın qarşısında sözü ilə əməlinin vəhdətin nümayiş etdirməsidir. Bu baxımdan xalqın seçdiyi lider bütün digər xarizmatik keyfiyyətləri ilə bərabər xalq qarşısında verdiyi söz və götürdüyü öhdəliklərə sədaqəti ilə özünün ən yüksək insani keyfiyyət olan sadiqlik və sədaqət, həqiqət və ədalət xarakterik xüsusiyyətlərini nümayiş etdirir.

Yeri gəlmişkən Azərbaycanlı gənclərin xaricdə təhsil alması ilə əlaqədar gənclərimizlə görüşdə Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib: "Əgər biz gənclərə və təhsilə böyük diqqət ayırmasaydıq, bu, mümkün olmazdı. Mən həmişə deyirəm ki, İlham Heydər oğlu bizim aramızda ən ziyalı və savadlı Prezidentdir və o bu məsələyə böyük diqqət yetirir. Görünür, bu səbəbdən o, dünyada normal təhsil olan yerlərə Azərbaycan gənclərini göndərməyə çalışır. Gənclər də əlbəttə, yeni texnologiyaları buraya, öz vətənlərinə gətirəcəklər, onlar yüksək bilikli adamlar olacaqlar. Bu gün bizdə 150 azərbaycanlı tələbə təhsil alır. Onlar bizim üçün heç bir problem yaratmırlar. Ağıllı, sakit gənclərdir, normal təhsil almağa çalışırlar. Bax, bu mütəxəssislər hər il Azərbaycanın iqtisadiyyatına cəlb edilir və sanballı nəticə verirlər. Bunlar olmasa, təhsil olmasa - bilirəm ki, texniki peşə təhsili üzrə də yeni layihələr vardır - normal əməkdaşlıq mümkün deyildir".

### O, XALQLA HƏMİŞƏ AÇIQ, SƏMİMİ TƏMAS QURMAĞI BACARIR VƏ BU BİR ÇOX LİDERİN ƏN BÖYÜK ARZUSUDUR DESƏK YANILMARIQ

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası İlham Əliyevin ölkənin gələcək inkşafı məqsədilə göstərdiyi əsas strateji təşəbbüslərdən biri kimi qəbul olunur. Bu konsepsiyanın hazırlanması barədə müvafiq Sərəncam 29 noyabr 2011-ci ildə qəbul olundu və 29 dekabr 2012-ci ildə isə qəbul olunmuş Fərmanla konsepsiya təstiq olundu. Konsepsiya 2020-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və ictimai rifahın artırılması üçün tədbirlər və fəaliyyətlər nəzərdə tutur. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi haqqında Azərbaycanın könüllü məruzəsinin qiymətləndirilməsində İlham Əliyev tərəfindən təstiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uzunmüddətli milli istəkləri, sərmayeçilər üçün imkanları və bu məqsədlər barəsində əsas məsələləri əks etdirən strategiya kimi təsvir olunmuşdur. Eyni yanaşma 2015-ci il Dünya İqtisadi Forumu üçün hazırlanmış və Xarici Siyasət jurnalında nəşr olunmuş Məruzədə də qeyd olunmuşdur. İqtisadi sahədə ixtisaslaşmış "The Business Year" jurnalı İlham Əliyev tərəfindən təşəbbüs edilən konsepsiyanı Azərbaycanın milli iqtisadi maraqlarını qorumaq məqsədilə hazırlanmış ağıllı strategiya kimi qiymətləndirdi.

1993-cü ildə Azərbaycanın xilasına tələsən Ulu Öndər Müstəqil Azərbaycan dövlətini qurdu və öz siyasi varisinə əmanət etdi. 42 yaşlı Prezident İlham Əliyevin seçimi yox idi. Ulu öndər onu Azərbaycan xalqına bağışlamışdı, həyatı boyu bu xalqa xidmət etməkdən başqa seçimi də yox idi və gərgin əziyyət, zəhmət bahasına- müstəqilliyin möhkəmlənməsi, dövlətin qüdrətlənməsi yolunda Azərbaycan dövləti 16 ildə yarım əsr irəlilədi, indi isə geriyə yol yoxdur...

Ulu öndərin yolunu davam etdirən İlham Əliyev şəxsiyyəti Azərbaycan tarixində Ulu Öndərdən fərqli olaraq gənc yaşda həm Azərbaycanın keçən bütün tarixində dünyada tanınan qüdrətli dövlət kimi tarixə düşməsinə, həm də Ulu Öndərin irsinin, ideyalarının və siyasi yolunun uğurla davam etdirilməsi ilə Heydər Əliyev fenomenal şəxsiyyətinin adının tarixə qızıl hərflərlə yazılmasının məsuliyyətini üzərinə götürdü.

İlham Əliyev rasional düşüncəli praqmatik baxışlı, optimist və realist siyasətçidir. Prinsipial, səbrli və qətiyyətlidir. Bəlli hədəfə atəş açmağın zamanını dəqiq bilən peşəkardır.

Onun həyat yolu və tarixi missiyası daim Azərbaycan xalqı ilə sıx bağlı olub və hələ Azərbaycan tarixinə qızıl hərflərlə uğurlar, nailiyyətlər və zəfərlər yazdırmaq imkanını Uca Tanrı artıq müdrik dövlət xadimi İlham Əliyevə nəsib edib.

### YOLUNUZ AÇIQ OLSUN CƏNAB ALİ BAŞ KOMANDAN!!!

Böyük ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçill demişdir: "Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir".

"Dünyaya gələn insanlar nə üçün gəldiyini bilmirlər, çünki onlar özləri bu dünyaya könüllü olaraq gəlməyiblər, lakin öz tarixlərini yazmaqda, yol ayrıclarındakı seçimlərində müstəqildirlər, yoxsa imtahan omazdı ki... Hər kəs öz portretini yaradıb altına öz imzasın atır".

"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi adından Cənab Prezidentimizin DOĞUM GÜNÜ MÜBARƏK OLSUN deyirik, Uca və Qadir Allahdan ona millətimiz və dövlətimiz adına uzun, sağlıqlı, xeyirli-bərəkətli ömür arzulayırıq.

***"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi***

# Son 17 ilin uğurlarının ümumiləşdirilmiş mənzərəsi: Zəfər tarixi

## *"Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam"*



**Vüqar Rəhimzadə,
Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru, Əməkdar jurnalist**

***Azərbaycanın bugünkü reallıqları 17 il öncəyə bir baxış keçirməyi zərurətə çevirir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2003-cü ildə Prezident kimi jurnalistlərə ilk müsahibəsində " Sizcə Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına cavabını xatırlatmaq istərdik. Dövlətimizin başçısı İlham Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü, gələcəyə hesablanmış siyasəti nəticəsində ölkəmizin bu günü üçün yaradılan möhkəm təmələ əsaslanaraq sualı belə cavablandırmışdı ki, həm asan, həm də çətin: "Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inikşaf etdirmək üçün gözəl zəmin yaranıbdır.***

On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yolla getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam".

Prezident İlham Əliyevin bu fikirləri sonrakı dövrdə görüləcək işlərin aydın mənzərəsini yaradırdı. Onun həyata keçirdiyi siyasətin strateji hədəfi güclü Azərbaycan dövlətinin formalaşdırılması, iqtisadiyyatın inkişaf etdirilməsi, müasir iqtisadi sistemin yaradılması, cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatların reallaşdırılması və sair kimi həllivacib məsələlər idi. Son 17 ildə Azərbaycanın bütün sahələrdə qazandığı uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkün olsa da, birmənalı vurğulamaq olar ki, bugünkü Azərbaycan məhz görülən işlərin, əldə olunan uğurların təqdimatıdır. O Azərbaycan ki, artıq çoxəsrlik tarixinə yeni bir səhifəni-Zəfər Gününü yazdı.

Təbii ki, əldə olunan hər bir uğuru şərtləndirən amillər mövcuddur. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətlərində daim bu fikri xüsusi qeyd edirdi ki, mən nəyi nə zaman edəcəyimi bilirdim. Ölkə Prezidenti, eyni zamanda, Azərbaycanın bu müddət ərzində daha da gücləndiyini, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi bazanın formalaşdığını bildirirdi.

### Müasir iqtisadi sistemin yaradılması qarşıya qoyulan hədəflərin gerçəkləşdirilməsinə stimul oldu

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu. Ümummilli lider Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilini önə çəkməsi bugünümüzə hesablanmış addımlar sırasından idi. Belə ki, neft-qaz gəlirlərinin düzgün idarə olunması üçün 1999-cu ildə yaradılan Dövlət Neft Fondunun vəsaitləri hesabına həyata keçirilən sosial-iqtisadi layihələr ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirdi. Həyata keçirilən regional inkişaf proqramları nəticəsində paytaxt və bölgələr arasında fərq tamamilə aradan qaldırıldı. Artıq inamla demək olar ki, hər bir kənd, qəsəbə quruculuq dövrünü yaşayır. Hazırda rayonlar arasında sağlam rəqabət gedir. Müasir iqtisadi və sosial infrastrukturun yaradılması bugünümüzün əsas hədəflərindən olan sahibkarlığın inkişafının sürətləndirən faktorlar sırasındandır. Bölgələrdə enerji, su, qaz tələbatının yüksək səviyyədə ödənilməsi qeyri-neft sektorunun inkişafına əhəmiyyətli təsir göstərir. Özünüməşğulluq proqramı uğurla icra edilir. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət", ABAD, DOST layihələri sosial xidmət sahəində şəffaflığın təminatına geniş imkanlar açır. Hazırda Azərbaycanın bu təcrübələri beynəlxalq səviyyədə də tətbiq edilir. Hər sahədə ilklərə imza atan Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurması nəticəsində qarşıya çıxan hər bir çətinliyi aradan qaldırmaq imkanına malikdir. 2008-ci ildə dünyanı bürüyən maliyyə və iqtisadi böhranın təsirləri ni yada salaq. Azərbaycan bu böhranı az hiss edən ölkələrdən oldu. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi Azərbaycanın iqtisadi artım ilə diqqətdə olmasını şərtləndirdi. Hazırda dünyanın, o cümlədən ölkəmizin koronavirus infeksiyası ilə mübarizə tədbirlərini gücləndirdiyi bir zamanda Azərbaycanın insanların sağlamlığının qorunması ilə yanaşı, iqtisadi dayanıqlığın təmin edilməsi yönümündə atdığı addımlar da beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Dövlətimizin başçısı İlham Əliyev ilk gündən bu hədəfi qarşıya qoydu ki, ümumi iqtisadi inkişafla bağlı nəzərdə tutulan islahatlarımız dərinləşməlidir. Layihələrin həyata keçirilməsi, yaxud da ki, əksinə, təxirə salınması məsələlərinə baxdıqda məşğulluq məsələlərinə xüsusi diqqət yetirməliyik. Çünki dövlət xətti ilə həyata keçirilən investisiya layihələri, eyni zamanda, məşğulluğu təmin edir və əhalisi artmaqda olan Azərbaycan üçün məşğulluq məsələsi ön plandadır. Pandemiya hədəflərə maneçilik törətməməli, vaxt itirməməliyik. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamı əsasında Tədbirlər Planının hazırlanması, bu sənədin 20 fəaliyyət sahəsini, 4 sektoru və 10 yardım proqramını əhatə etməsi Azərbaycanın COVID-19-la mübarizə dövründə də qarşıya çıxan çətinlikləri dəf etməsinə geniş imkanlar açır. İşsiz və pandemiya dövründə işsiz qalan vətəndaşlara 190 manat birdəfəlik yardımın edilməsi, sahibkarlara dövlət dəstəyinin göstərilməsi və sair kimi bir-birindən önəmli addımlar Azərbaycanın bu sahədə 2020-ci ili müsbət nəticələrlə başa vurmasına yol açdı.

Azərbaycanın iqtisadi möcüzələr ölkəsi, dünyanın ən islahatçı 10 ölkəsi sırasında qərarlaşması həyata keçirilən siyasətin uğurlu nəticələridir. Artıq Azərbaycanın liderliyi ilə regional çərçivədən çıxaraq beynəlxalq əməkdaşlığa xidmət edən mühüm enerji və nəqliyyat layihələri həyata keçirilib və keçirilməkdədir. 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması kimi əhəmiyyətli hadisəni tarixinə yazan Azərbaycan üçün 2018-ci ildə Cənub Qaz Dəhlizinin işə düşməsi, TANAP-ın istifadəyə verilməsi təşəbbüsləri gerçəkliyə çevirən ölkəmizin etibarlı tərəfdaş kimi möhkəmlənən mövqeyinə işıq salır. Artıq yaxın günlərdə TAP-ın istifadəyə verilməsi nəzərdə tutulur.

### Həyata keçirilən siyasətin mərkəzində insan amili dayanır

Prezident İlham Əliyevin bütün çıxışlarının mahiyyətində bu amil dayanır ki, güclü dövlət, yüksək rifah həyata keçirilən siyasətin əsasını təşkil edir. Həmçinin bu məqam da diqqətə çatdırılır ki, 2003-cü ildə "Neft kapitalını insan kapitalına çevirək" tezisi irəli sürüləndə yalnız elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmirdi. Söhbət ondan gedirdi ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır. Dövlət məmurları insanların qayğıları ilə maraqlanmalı, daim onların yanında olmalıdırlar. Ölkə Prezidenti İlham Əliyev məmur-vətəndaş münasibətlərində, xalqla ünsiyyətdə öz şəxsi keyfiyyətləri və nümunəvi davranışı ilə ən mükəmməl örnək olmaqla yanaşı, haqlı olaraq dövlət idarəçiliyi sahəsində çalışan hər kəsdən də bunu tələb edir. Vətəndaş məmnunluğunun artırılması dövlətimizin başçısı İlham Əliyevin fəaliyyətinin əsasında dayanır. Bu isə öz növbəsində xalq-iqtidar birliyini daha da möhkəmləndirir, sarsılmaz edir. Prezident İlham Əliyev xalqa güvəndiyini, xalqdan güc aldığını hər zaman bəyan edir. Daim ictimaiyyətin arasında olan, irəli sürülən təşəbbüslərin, qəbul olunan qərarların icrası ilə yaxından tanış olub, onlar barədə xalqın dilindən eşitməyə çalışan liderə milyonların sevgisi şəksiz olacaq

Dövlətimizin başçısı 2003-cü ildə hədəfləri açıqlayarkən əhalinin sosial müdafiəsinin prioritetliyini önə çəkərək bu məqamı xüsusi qeyd etmişdi ki, yoxsulluq deyilən sosial bəla aradan tamamilə götürülməlidir. Son 17 ildə yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizə enməsi düşünülmüş siyasətin, əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün uğurla həyata keçirilən sosial paketlərin nəticəsidir. Bu barədə söhbət açarkən təkcə son iki ilin statistikasına diqqət yetirmək kifayətdir. 2019 -cu ildə 4,2 milyondan artıq insanı əhatə edən iki sosial paket həyata keçirildi. Cari il üçün icra edilən sosial proqramlar da göz qabağındadır. Baxmayaraq ki, koronavirus infeksiyası dünya dövlətləri kimi, ölkəmizin də iqtisadiyyatına təsirsiz ötüşmür, amma dövlətimizin başçısı İlham Əliyev bir dənə də olsun sosial layihənin təxirə salınmayacağını bildirdi.

Prezident İlham Əliyev 2003-cü ildə bu hədəfi də açıqlamışdı ki, hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaq. Bu fikirlər ümummilli lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisinin davamı kimi dəyərləndirildi. Təkmil islahatlar fonunda yeni hədəflərin gündəmə gətirilməsi və həyata keçirilməsi istiqamətində atılan addımlar davamlı inkişafı şərtləndirir. Ölkə Prezidenti İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı da bu məqsəddən irəli gəlir. Sənədə əsasən, müxtəlif istiqamətləri əhatə edən yol xəritələri arasında əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək addımlardandır. 2021-ci ilin dövlət büdcəsi layihəsi də sosialyönümlülüyü ilə diqqət çəkir. Prezident İlham Əliyev daim bildirir ki, qarşıdakı ilin dövlət büdcəsi arxada qalan ilin büdcəsindən kəmiyyət və keyfiyyət baxımından yüksək olmalıdır.

### İqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır

Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan dünyanın iqtisadi, siyasi və humanitar mərkəzinə çevrilib. Bütün sahələrdə ilklərə imza atan ölkəmiz müxtəlif beynəlxalq səviyyəli tədbirlər üçün ideal məkan seçilməklə malik olduğu imkanlarını dünyaya təqdim edir. Multikulturalizmin, tolerantlığın Vətəni kimi tanınan Azərbaycan müxtəlif mədəniyyətləri, dinləri bir araya gətirməklə dünyaya sülh, əmin-amanlıq, əməkdaşlıq, birlik və həmrəylik mesajını ünvanlayır. 2016-cı ilin dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan olunması da deyilənlərin təsdiqidir.

Bu gün Azərbaycan tolerant ölkə kimi yerini və rolunu möhkəmləndirməkdə, dünyada da bu mühitin qorunmasının vacibliyini bəyan etməkdədir. Cənab İlham Əliyevin bildirdiyi kimi, bizim təşəbbüslərimiz mədəniyyətlər və sivilizasiyalar arasında körpü kimi ölkəmizin mövqelərinin gücləndirilməsi məqsədini daşıyır. O ölkə ki, qarşılıqlı anlaşmaya daha çox töhfə vermək iqtidarındadır, bunu etməlidir. Qısa zamanda, 29 illik müstəqillik tarixinin 27 ilində Azərbaycan özünü dünya birliyinə etibarlı tərəfdaş, müstəqil xarici siyasətə malik, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə kimi təqdim etməyə müvəffəq olub. Azərbaycanın siyasi sisteminin transformasiyası, demokratik təsisatların yaradılması məhz bu illərdə olmuşdur. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Ölkə əhalisinin 85 faizindən çoxu internet istifadəçisidir. Sərbəst toplaşma və dini etiqad azadlığı, ümumilikdə, bütün azadlıqlar təmin edilir. Bu isə öz növbəsində sürətli iqtisadi inkişaf üçün yaxşı zəmin yaradır. Azərbaycanda iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılır. Uğurlarımız bir daha dövlətimizin başçısı İlham Əliyevin siyasətində humanizm prinsiplərinin, vətəndaş amilinin aliliyinin, multikulturalizm ənənələrinin inkişaf etdirilməsinin, milli birlik və həmrəyliyin əsas yer tutduğunu nümayiş etdirir.

### Azərbaycan imzası qədər sözünün də əhəmiyyətli olduğunu bir daha təsdiqlədi

Son 17 il Azərbaycanın istər ikitərəfli, istərsə də çoxtərəfli çərçivədə əlaqələrinin inkişaf etdirilməsi ilə xarakterizə olunur. Azərbaycan böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraqlar və hörmət prinsipləri əsasında əlaqələrini qurur və inkişaf etdirir. Ölkəmizin xarici siyasətində Avropa dövlətləri ilə əməkdaşlıq xüsusi yer tutur. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" adlı sənədin imzalanması həm bu beynəlxalq təşkilatla, həm də qurumа üzv dövlətlərlə Azərbaycan arasında əlaqələrin inkişafında yeni mərhələ açdı.

Ardı Səh.13

# Son 17 ilin uğurlarının ümumiləşdirilmiş mənzərəsi: Zəfər tarixi

## *"Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam"*

**Əvvəli-Səh-12**

Azərbaycan ötən 17 ildə beynəlxalq arenada yeni dostlar, tərəfdaşlar qazanıb. Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan ilə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı ilbəil artır. Onu da qeyd edək ki, hazırda Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə regionda yeni əməkdaşlıq formatları formalaşıb, həmçinin dünyanın aparıcı dövlətlərinin yeni xarici siyasəti ölkəmizdə müzakirə olunur.

Azərbaycanın 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2022-ci illər üzrə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin əyani göstəricisidir. Bir sözlə, ölkəmiz dünya, o cümlədən region dövlətləri ilə istər ikitərəfli, istərsə də çoxtərəfli çərçivədə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu atdığı hər bir addımında təsdiqləyir.

Azərbaycan gerçəkliyə çevirdiyi enerji layihələri ilə regional inkşafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Azərbaycan dünyanın enerji xəritəsinin yenidən tərtib edib. Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin uğurlu, düşünülmüş və balanslaşdırılmış xarici siyasətinin nəticəsidir.

Ötən ilin mühüm tədbirləri sırasında yer alan Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında dövlətimizin başçısı İlham Əliyevin nitqi tarixi əhəmiyyəti ilə yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyana verdiyi dərslə yadda qaldı: "Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi."

Son 17 ildə Azərbaycanın diplomatik uğurlarının miqyası genişliyi ilə diqqət çəkir. Bunlar isə öz növbəsində yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə zəmin yaratdı. Dövlətimizin başçısı İlham Əliyev dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından bəyan edirdi ki, sülh danışıqları səmərə vermədiyi təqdirdə hərb yolu istisna edilmir.

### Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır

Müharibə şəraitində yaşayan ölkə üçün güclü ordunun olması əsas şərtlərdən biridir. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır. Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin ordu quruculuğu istiqamətində atdığı davamlı addımların ümumiləşdirilmiş ifadəsi Azərbaycan Ordusunun sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə hücumlarının qarşısını qətiyyətlə alaraq dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin "İrəli!" əmri əsasında 44 günlük İkinci Qarabağ müharibəsində tarix yazmasıdır. Bu tarix heç zaman unudulmayan, xalqımıza, sevinc, xoşbəxtlik, qürur gətirən tarixdir. Dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Orducu İkinci Qarabağ müharibəsində öz şücaəti ilə dünyanın hərb tarixinə yeni səhifə yazdı. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərə imza atan Azərbaycanın digər sahələrdə təcrübəsi nümunə olduğu kimi, hərbi təcrübəsinin də öyrənilməsinin vacibliyi bu gün dünya ekspertləri tərəfindən xüsusi qeyd edilir. Bu təcrübə barədə neçə-neçə kitablar yazılacaq, işğala son qoyan, ədaləti bərpa edən, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edən, bir sözlə, ərazi bütövlüyümüzü bərpa edən Azərbaycan Ordusu qəhrəman, yenilməz, məğrur xalq olduğumuzu bir daha dünyaya nümayiş etdirdi.

Xalqın öz Liderinə, Müzəffər Sərkərdəsinə ehtiramının əyani təzahürü

44 günlük İkinci Qarabağ müharibəsi Xalq-Prezident birliyini, həmrəyliyini bir daha təsdiqlədi. Harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. O cümlədən 50-dən artıq siyasi partiya Prezident İlham Əliyevlə bir, həmrəy olduqlarını bildirdilər. Bu, ölkəmizdə vətəndaş həmrəyliyinin, ümummilli məsələlərdə müxalifət-iqtidar münasibətlərinin bir kənara qoyulması ilə yanaşı, Prezident İlham Əliyevin milli maraqların qorunmasına xidmət edən prinsipial mövqeyinin, tutduğu düzgün yolun dəstəklənməsi idi. Dövlətimizin başçısı Vətən müharibəsinin gedişində nəyi nə zaman etmək lazım olduğunu bir daha işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə nümayiş etdirdi. Mövqeyindən bir addım da belə geri çəkilməyəcəyini bəyan edən Prezident İlham Əliyev Azərbaycana qarşı 7 şərt irəli sürən Ermənistanın baş naziri Nikol Paşinyanın qarşısında bir şərt qoydu- Torpaqlarımızdan rədd olub getmək. Prezident İlham Əliyev Vətən müharibəsi dövründə, xüsusilə sentyabrın 27-də xalqa müraciətində erməni hərbi birləşmələrini torpaqlarımızdan iti qovan kimi qovacağımızı bildirdi və qətiyyətli mövqeyi ilə bu vədini gerçəkləşdirdi. Azərbaycanın üçəngli bayrağının işğal altında olan bütün torpaqlarımızda dalğalanacağına əminlik ifadə edildi və müqəddəs bayrağımız işğaldan azad edilmiş Qarabağ torpaqlarında ucaldıldı. Qarabağın ürəyi, tacı olan Şuşamız tarixi sahibinə qayıtdı. 44 gündə 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın yaşayış məntəqəsi, xeyli sayda strateji yüksəkliklər işğaldan azad edildi. Təkcə noyabrın 9-da 70-dən çox kənd düşməndən təmizləndi. Bu qələbələrimiz Ermənistanı diz çökdürdü, kapitulyasiya aktını imzalamağa məcbur etdi. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri Nikol Paşinyan üçtərəfli Bəyanatı imzalamaqla Azərbaycanın hərbi-siyasi Qələbəsini dünyaya təqdim etdilər.

Son 17 ildə Azərbaycan xalqı həmişə öz Liderinə güvənib, ona ən güclü dayaq olub. 44 günlük müharibə bu güvənin təqdimatı kimi də tarixə yazıldı. Dövlətimizin başçısı, Ali Baş Komandanımız İlham Əliyevin və xanımı Mehriban Əliyevanın müharibə Azərbaycanın Qələbəsi ilə başa çatdıqdan sonra işğaldan azad edilmiş torpaqlarımıza-Cəbrayıl, Füzuli və Ağdama səfər etmələri, Qələbə sevincini ilk olaraq xalqla paylaşmaları, möhtərəm Prezidentimizin Azərbaycanın gələcəyi ilə bağlı prioritetləri açıqlaması və sair kimi qürur verən məqamlar xalq-Prezident birliyinin, həmrəyliyinin təzahürüdür. Cəbhə bölgələrimizdən gələn hər bir qələbə xəbərini, o cümlədən Zəfər Günümüzü özünün "Twitter" səhifəsində paylaşan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva daim bu arzunu, istəyi ifadə edirdi ki, Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Artıq bu istək gerçəkləşir. Qarşıdakı illərdə möhtərəm Prezidentimizin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimiz sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl guşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcək. Ölkəmizin həyatında yeni dövr- quruculuq dövrü başlayır. Sentyabrın 27-dək məcburi köçkün adını daşıyan bir milyondan artıq soydaşımız tezliklə Böyük Qayıdışın iştirakçısı olacaq.

Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" fikirləri ilə, eyni zamanda, ulu öndər Heydər Əliyevin ona olan etimadını, inamını doğrultmasından, ən əsası Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vəsiyyətini yerinə yetirməsindən qürurlandığını da ifadə etmişdir.

Qələbəmizi dünyaya təqdim edən Zəfər paradı

Bu parad Azadlıq meydanında illərdir keçirilən paradlardan fərqlənirdi. Çünki bu, torpaqlarımızın işğaldan azad olunması, Vətən müharibəsində Qələbəmizin sevincini paylaşmaq, bir daha müdafiə qüdrətimizi bütün dünyaya bəyan etmək, həmçinin Ermənistanın illərdir havadarlarının dəstəyi ilə işğal altında saxladığı torpaqlarımızda qurduğu istehkamların Azərbaycan Ordusu tərəfindən dağıdılaraq onların qənimət kimi götürülən hərbi texnikalarını nümayiş etdirmək məqsədi daşıyırdı. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Qələbəyə həsr olunan Zəfər paradındakı çıxışında da bu məqamı xüsusi qeyd etdi ki, biz bu illər ərzində həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində güc topladıq. İqtisadiyyatımızı, ordumuzu gücləndirdik. Azərbaycan son illərdə uğurlu inkişaf yolu keçib. İldənilə üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Ölkə Prezidenti bu məqamı da xüsusi vurğuladı ki, son 17 ildə dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə işğalçı qüvvələrini torpaqlarımızdan çıxarmasa, hərbi yolla bu məsələni həll edəcəyik. 2003-cü ildə Prezident seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Son 17 ilin hər bir uğuru ölkəmiz üşün əhəmiyyətli, qürurvericidir. Ərazi bütövlüyümüzün təmin olunması, artıq "Dağlıq Qarabağ münaqişəsi" termininin yoxluğu bu uğurların zirvəsidir. Bu parad müstəqillik tariximizin şanlı Qələbə paradıdır. Zəfər paradındakı çıxışında 44 günün hər gününü tarixi qələbəmiz kimi dəyərləndirən cənab İlham Əliyev bildirdi ki, biz Qələbəni döyüş meydanında qazandıq. Zəfər paradında hər zaman olduğu kimi, 44 günlük müharibə dövründə də Azərbaycanın yanında olan, dünyaya "Azərbaycan tək deyil, Türkiyə yanındadır" mesajını ünvanlayan dost, qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan tarixi Qələbəmizdə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini, rolunu xüsusi vurğulayaraq bildirdi: "Qardaşım İlham Əliyev beləliklə mərhum Heydər Əliyevin vəsiyyət etdiyi arzusunu da yerinə yetirib. Bu vəsilə ilə güclü Azərbaycanın təməllərini atan ümummilli lider Heydər Əliyevi buradan rəhmətlə anıram. Azərbaycan qardaşım İlham Əliyevin liderliyi altında dastan yazmağa davam edəcək".

Son 17 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri, ən əsası Zəfər Günü bu ümumiləşdirməni aparmağa əsas verir ki, möhtərəm Prezidentimiz İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail oldu. Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan, etimad göstərdiyi alternativsiz Liderdir. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixə qızıl hərflərlə yazdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı, 44 günlük İkinci Qarabağ müharibəsinin əsl qəhrəmanına çevrildi. Dövlətimizin başçısı, Ali Baş Komandanımız İlham Əliyevə vətəndaşların ünvanladığı saysız-hesabsız minnətdarlıq və təşəkkür məktublarında da bu reallıq öz əksini tapır ki, ölkə Prezidenti "Milli Qəhrəman" "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq olan ən görkəmli şəxsiyyətdir. Bu gün hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizlə fəxr edir, belə güclü, qüdrətli dövlətin, məğrur, yenilməz xalqın nümayəndəsi olmağı ilə qürur duyur. Eşq olsun Müzəffər Ali Baş Komandana! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna! Zəfərin mübarək, Azərbaycan! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevi doğum günü münasibətilə kollektivimiz adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin daha da inkişaf etdirilməsi, vətəndaşların yüksək rifahının bundan sonra da təmin olunması istiqamətində yorulmaz fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq. Tanrı Sizi qorusun! Tanrı Azərbaycanımızı qorusun!

# Deyəsən "dəmir yumruq" Tofiq Yaqublunun da başına dəyib




ve-

ə

**Dövlət və xalq birliyinin qələbəsini həzm etməmək qalsın bir yana, bəs erməni qədər düşünməyə nə deyək?**

"Milli Şura" haray-şivənçilərinin bu dəfə qələbəmiz üzərində özlərinə əl qatmaları sözün həqiqi mənasında ürək bulandırır. Bu isə bir daha sübut edir ki, xəstə təfəkkürə və sözün əsl mənasında, erməniçiliyə xas olan davranışlar gənclərimizin də hiddətinə tuş gəlməkdədir. Bu mənada, Yeni Azərbaycan Partiyasının fəal gəncləri təşkilatın Gənclər Birliyinin səhifəsində sözügedən mövzuda var-gəl edən Tofiq Yaqublunun iç üzünü ifşa edən statuslar paylaşıblar. "Erməni başına dəyən dəmir yumruq Tofiq Yaqublunun da başına dəyib!" SİA xəbər verir ki, bunu YAP-ın gənc fəalı Anar Şahmuradov yazıb.

**Anar Şahmuradov: "Qaçıb Bakı tərəfə və Hacıqabulun düzəngahında "boğulub", quduzlaşıb"**

"Tofiq Yaqublu Azərbaycan xalqının Vətən müharibəsindəki möhtəşəm qələbəsini həzm edə bilmədi və sonunda dəli oldu", yazan gənc fəal fikirlərini bu cür izah edib: "Daha doğrusu, buna dəlilik də demək olmaz. Effekt tamam başqa effektdir. Təxminən, Qarabağdan qovulandan sanki biri qaçıb Bakı tərəfə və Hacıqabulun düzəngahında "boğulub", quduzlaşıb. Yoxsa, hansı səbəbə görə Tofiq Yaqublu hər gün Azərbaycan Ordusunu, canından keçərək şəhid olmuş soydaşlarımızı, sağlamlığını itirmiş qazilərimizi təhqir etsin, onlara qarşı həqarət nümayiş etdirərək torpaqlarımızın azad edilməsini başqa-başqa ölkələrin adına bağlamağa çalışsın?"

**"Erməni qardaşları özlərinə gələ bilmədikləri kimi Tofiq Yaqublu da hələ də özünə gələ bilmir..."**

"Tofiq Yaqublunu və bir düşərgədə olduqlarını dəli edən həm də Azərbaycan cəmiyyətində Ali Baş Komandan İlham Əliyevə olan rəğbət, onun yaratdığı rəşadətli ordu nəticəsində torpaqlarımızın işğaldan azad olunmasıdır", davam edən Anar Şahmuradova görə, Tofiq Yaqublu qanmaq istəmir ki, Azərbayacan Prezidentinin həyata keçirdiyi düşünülmüş və uğurlu siyasət öz bəhrəsini verib: "Daha doğrusu qanır, amma qəbullanmaq istəmir. Tofiq Yaqublu deyir ki, Azərbaycan Rusiyadan yararsız silahlar alıb. Fikirdə absurdluğa bir baxın! Bu adam Paşinyanın etdiklərini Azərbaycanın adına çıxır. Azərbaycan Vətən müharibəsində Rusiyadan deyil, Türkiyədən və İsraildən aldığı silahlardan, xüsusilə də dronlardan istifadə edərək düşmənin keçilməz sədlərini məhv etdi, düşmənin belini qırdı! Azərbaycan əsgərinin rəşadəti, məğlubedilməzliyi də ki, öz yerində!

Əlqərəz, Azərbaycanın dəmir yumruğun ermənin başına dəydiyini bilirdik. Görünür, erməni başına dəyən yumruq Tofiq Yaqublunun başına dəyib! Axı, qardaşları özlərinə gələ bilmədikləri kimi Tofiq Yaqublu da hələ də özünə gələ bilmir...".

**Əli Babazadə: "Görünən də o idi ki, bu cəbhə qırıntısına nə qələbə lazım idi, nə də torpaq..."**

YAP GB-nin digər gənc fəalı Əli Babazadənin də fikirləri maraqdoğurucudur. "Köhnə qaragüruhçu müxalifət qvardiyasının oyuncaq kimi ortaya atdığı, lakin sonradan bəzi idiotların gözündə kuklanın bütə çevriləcəyindən qorxaraq yenidən arxa plana saldıqları Tofiq Yaqublu adlı birisi yenidən şou ilə gündəmə gəlmək istəyir", yazan gənc iqtidar üzvü bildirib ki, adıçəkilən ünsür bu dəfə şanlı qələbəmizdə Ali Baş Komandanımızın böyük əməyini heçə endirmək niyyətindədir, elə ermənilər kimi: "Əslində, işğalda olan torpaqlarımızı geri almaq üçün başlanan müharibənin ilk günlərindən bu psevdopatriotun içində bir qələbə fobiyası formalaşmışdı. Hətta o, bunu hər dəfə dolayısı ilə səsləndirirdi. Görünən də o idi ki, bu cəbhə qırıntısına nə qələbə lazım idi, nə də torpaq..."

**"Bu "Milli Şura" militanı Zəfər paradına baxmağa ürəyi dözməyib"**

"Tofiq Yaqublunun absurd fikrinə görə ordumuzda zəif, köhnə, sovetdənqalma silahlar olub", qeyd edən Əli Babazadəyə görə, görünür, bu "Milli Şura" militanı Zəfər paradına baxmağa ürəyi dözməyib: "Yaxud, həmin paradda nümayiş etdirilən ermənilərin - öz qardaşlarının silahlarından başqa silah görməyib. "Müasir silahlarımız olsa idi, daha az itki verərdik" deməkdən belə utanmayan bu vətən xaini başa düşməlidir ki, düşməndən dörd dəfə az itki verməyimizin də, düşmənin 30 il ərzində möhkəmləndiyi mövqeləri qısa zamanda məhv etməyimizin də əsas səbəbi qəhrəman əsgərlərimizlə yanaşı, XXI əsrin ən yeni müharibə texnologiyasına sahib olmağımız idi... Bütün bunlara baxmayaraq, xalq qalib ordusunu və bu ordunun müzəffər rəhbərini sevir. Müharibənin ilk günündən hər bir azərbaycanlı bunu həm fikri, həm də əməli ilə sübut etdi. Tofiq Yaqublu kimilər isə hər zaman satqın kimi xatırlanacaqlar..."

***Rövşən RƏSULOV***

# "Koçaryan-Sarkisyan hərbi xuntası öz xalqını səfil gününə salmışdı"



***"Azərbaycan Ordusunun erməni təxribatına qarşı 44 günlük əks hücüm əməliyyatı Zəfərimizlə yanaşı, Ermənistan dövlətinin bütünlüklə çürüdüyünü də fakt olaraq ortaya qoydu. Bütün dünyaya və eləcə də erməni cəmiyyətinə sübut olundu ki, faşist ideologiyasına söykənən bütün dövlətlərin son aqibəti budur". Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***

Onun sözlərinə görə, Ermənistanda uzun illər hakimiyyətdə olan Koçaryan-Sarkisyan hərbi xuntası öz xalqını apardıqları işğalçılıq siyasəti ilə səfil gününə salmaqla inkişafdan çox geri qoydular: "Küçədən Soros himayəsi ilə hakimiyyətə gələn Paşinyan erməni cəmiyyətində bir inam yaratdı. Erməni xalqı Paşinyandan daha fərqli siyasət gözləsələr də, mahiyyət etibarı ilə Koçaryan-Sarkisyan rejiminin apardığı siyasətin davam etdirilməsinin şahidi oldular. Azərbaycan cəmiyyəti də Paşinyandan işğal olunmuş torpaqlarımızla bağlı daha sağlam düşüncəli siyasətin aparılacağını gözləyirdi. Lakin tam tərsinə, Paşinyan hökumətindən daha qızışdırıcı bəyanatlar eşidilməyə başladı. Yeni torpaqların işğal edilməsi ilə bağlı hədələyici çağırışlar erməni rəsmilərinin leksikonunda yer almağa başladı. Paşinyan isə daha uzağa gedərək "Qarabağ Ermənistanın nöqtə" deməklə əsl kimliyini ortaya qoydu. Bununla kifayətlənməyərək işğal altında olan Şuşa şəhərinə gəlməklə, orada Cıdır düzündə sərxoş vəziyyətdə yallı oynadı. Bütün bunlardan sonra isə təmas xəttində erməni silahlı qüvvələri təxribatlara əl ataraq dinc sakinlərimizi və əsgərlərimizi qətlə yetirməyə başladılar. Əslində, Paşinyan hökuməti bu hərəkətləri ilə aldatdıqları erməni xalqının fikrini başqa istiqamətə yönəltməyi düşünür və vaxt qazanmaq istəyirdilər".

A.Xəlilov onu da bildirdi ki, küçələrdə xalqa yalan vədlər verərək hakimiyyətə gələn Paşinyan məhv olunmuş Ermənistan iqtisadiyyatını inkişaf etdirmək iqtidarında olmadığını dərk edərək bu cür əməllərlə vəziyyətdən çıxmağa çalışır, Qərbin və erməni diasporunun maliyyə yardımlarını almağı düşünürdü: "Çünki başqa cür də ola bilməzdi, Ermənistan iqtisadiyyatının dirçəldilməsinin əsas yolu Azərbaycanla müharibəyə son vermək və regional iqtisadi layihələrə qoşulmaqdan keçirdi. Lakin Paşinyan hökuməti səlləflərinin etdiyi səhvi təkrar edərək demokratiya adı altında faşist ideologiyasını davam etdirərək öz xalqını bugünkü rüsvayçı məğlubiyyətə məhkum etdi. Azərbaycan ordusu öz fatehi, Ali Baş Komandanının qətiyyətli siyasəti ilə 44 gün ərzində torpaqlarımızı işğaldan azad edərək Ermənistan ordusunu bütünlüklə darmadağın etdi. Çoxlu sayda canlı qüvvə və texnikaları sıradan çıxarıldı. Əsgəri itkilərini cəmiyyətdən gizlətməyə çalışsalar da bu gün İrəvan küçələrinə çıxan itgin düşən əsgər analarının sayı öz sözünü deyir. Artıq öz hökumətlərinə inamını itirən bu analar Azərbaycan prezidentindən yardım istəyir. Bu isə o deməkdir ki, erməni xalqı bu gün siyasi rəhbərlikdən məhrumdur. Onu idarə edən hökumət yoxdur və formal xarakter daşıyır. Xalq onu aldadan və səhv siyasəti ilə uçuruma aparan hökumətə tam etimadsızlıq nümayiş etdirir. Hesab edirəm ki, nəhayət erməni xalqı 100 ildən artıqdır apardığı bu axmaq siyasətdən əl çəkərək özlərinə düzgün siyasət quracaq sağlam düşüncəli hökumət formalaşdıracaq və qonşuları ilə dinc şəraitdə yaşamağı öyrənəcəklər. Bunu edə bilməsələr daha böyük faciələr onları gözləyəcəkdir".

***Gülyana***

# Fikrət Sadıqov: "Ermənistanın tanıması üçün Qarabağda heç bir qondarma qurum qalmayıb"



"Ermənistan bu günə kimi qondarma "DQR"-i tanımayıb. Lakin Qarabağ Azərbaycanın tərkibinə qaytarıldıqdan sonra bu qondarma qurumu tanımaq barədə sayaqlayırlar. Dağlıq Qarabağda hansı statusdan söhbət gedə bilər? Artıq nə elə bir respublika, nə də elə bir muxtariyyət var. Bunların hər biri artıq virtual anlayışlardır. Biz bu məsələyə son qoymuşuq". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.

Ekspertin sözlərinə görə, Qarabağda tanımaq üçün bir qurum da qalmayıb: "Azərbaycan öz torpaqlarında yaradılan qondarma bütün strukturları dağıdıb. Ermənilərin "DQR"-i tanımaqla bağlı hədələrinin gündəmə gəlməsinin əsas səbəbi bəzi dəstəkləri hiss etmələrindən irəli gəlir. Rusiya sülhməramlıları görünür onların başına sığal çəkib. Sülhməramlıların onlara köməklik göstəməsi və hətta ermənilərin Xankəndinə qayıtması üçün şərait yaratması, evləri təmir etməsi hər birimizə məlumdur. Məhz bu məsələlərə görə, erməni tərəfinin dili uzanıb. Erməni rəsmilərinin müsahibələrində onların boş vədlər verdiklərinin də şahidi oluruq. Bütün bunlar sözün əsl mənasında dəyərsiz sözlər və vədlərdir".

F.Sadıqov vurğulayıb ki, Ermənistanın qondarma "DQR"-i tanıması həm beynəlxalq hüquq normalarına, həm də imzalanmış 3 tərəfli bəyanata ziddir: "Biz başa düşürük ki, bu kimi addımlar ilk növbədə bizim maraqlarımıza zərbə vurmaq istəyidir. Təbii ki, biz belə bir şeyə heç vaxt razı olmayacağıq. Ermənilərin indiki halda bu cür yekə-yekə danışmaqları tamamilə boş şeylərdir. Ermənistan yaxşı olar ki, daxildə baş verən problemləri həll etməyə çalışsın. Daxildə baş verən çaxnaşmalar, bölünən fikir ayrılıqları, hakimiyyətə qarşı xalqın nifrəti kimi məsələlərlə məşğul olmaqları daha məqsədə uyğundur".

**Aysel Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ailə planlaması: azuşaqlılıq, yoxsa çoxuşaqlılıq?

## Ginekoloq: "Valideynlər öz ailə tərkiblərini istədikləri sayda saxlamaq üçün öz körpələrini abortla qətl etdirirlər"

***Ailə planlaması ailədəki uşaqların sayını kimsəyə zərər vermədən müəyyənləşdirmək deməkdir. Yəni, valideyn aborta getmədən, uşağı bətnində öldürtmədən istədiyi sayda uşaq sahibi ola bilər. Amma ailə planlaşdırılması doğumun qarşısını almaq, sonsuzluq yaratmaq da demək deyil. Bəs bu məsələ necə tənzimlənməlidir? Bu yazıda ekspertlərin köməyi ilə aydınlıq gətirməyə çalışmışıq.***



### Azərbaycanda abortların sayı artır

Ailələrin istənilən sayda uşaq sahibi ola bilmələri üçün tətbiq olunan üsullara "ailə planlaması" deyilir. Xüsusilə qeyd edək ki, ailə planlaşdırılması doğumun qarşısını almaq, sonsuzluq yaratmaq demək deyil. Ailə planlaması bir növ nəzarət altında olan doğuş sayı deməkdir. Bu o deməkdir ki, abort statistikasının yüksəlməsində iştirak etmirsiniz.

Ölkədəki abort statistikası göstərir ki, qadınlarımız hamiləliyin qarşısının alınması üçün heç bir vasitədən istifadə etmir və ailə tərkibini körpələrin qətl etdirmək bahasına "qoruyurlar". Orta hesabla, hər il Azərbaycanda 35 min abort halı qeydə alınır. Qeyri-rəsmi məlumatlara görə, bu rəqəm 70 mindən çoxdur.

Yeri gəlmişkən, ötən il ölkədə ümumilikdə 37 min 308 qadın abort etdirib və bu göstərici əvvəlki illə müqayisədə 3,2% və ya 1167 nəfər artıb. Ekspertlər bir çox abort hallarının rəsmi qeydiyyata alınmadığını, bu səbəbdən real rəqəmin azı 2 dəfə yüksək olduğunu güman edirlər.

Müasir dövrdə istənilən problemin həllini tapan elm adamları valideynlərin istədikləri sayda uşaq sahibi olmasına da çarə tapıblar. Həm də bu çarə yeni deyil. İndi analar maddi problemlərinə, şəxsi sağlamlığına və yaxud da başqa bir səbəbə görə aborta getmək məcburiyyətində deyillər. Çünki indi nəzarət altında olan doğum üçün ailə planlaması anlayışı var. Ailə planlaması ailənin istədiyi zaman uşaq sahibi ola bilmək, doğulacaq körpənin və ananın sağlamlığını maksimum düşünmək deməkdir.

Həmçinin, ailə planlaması valideynləri övlad sağlamlığı mövzusunda məlumatlandırmaq, ana və uşaq ölümlərinin qarşısını almaq, körpələrin sağlamlığını qorumaq, riskli hamiləliklərin qarşısını almaq, arzuolunmayan hamiləlikdən qorunmaq, daha gənc və qoca yaşda istənməyən hamiləliyin qarşısını almaq deməkdir.

Bu gün dünyada mütəxəssislər ailə planlamasını insanları övlad sağlamlığı mövzusunda məlumatlandırmaq, ana ölümlərinin qarşısını almaq və sağlamlığını qorumaq, körpələrin sağlam doğulmalarını və yaşamalarını təmin etmək, yüksək riskli və arzu olunmayan hamiləliklərin qarşısını almaq, uşaq sahibi olmaq istəyənləri tibbi kömək, valideynləri ailə planlamasının vasitələri ilə tanış etmək, daha gənc və ya ahıl yaşda istənməyən hamiləliyin qarşısını almaq kimi xarakterizə edir.

Dünyanın bir çox ölkəsində ailələr ödənişsiz formada ailə planlaması seminarlarına cəlb edilir, subay və ya yeni ailə quran gənclər, artıq övladı olan ailələr belə bu treyninqlərdə iştirak edirlər. Bəzi ölkələrdə doğum evlərində qoruyucu vasitələr də ödənişsiz paylanır, bu doğuşlar arası müddətin tənzimlənməsi üçün vacib hesab edilir.

### Həkim: "Elə qadın var ki, ildə 8-9 dəfə aborta gedir"

Həkimlər bildirirlər ki, daha çox uşaq doğulması ananın daha sağlam və daha uzunömürlü olmasını təmin edir. Lakin doğumlararası müddətə fikir evrilməlidir. Əgər uşaqların doğulması arasındakı zaman 2 ildən az olarsa, uşağın və ananın həyatında təhlükə yarana bilər.

Ginekoloq Arzu Məmmədova deyir ki, doğuşlar arasında ən az 2 il zaman olmalıdır: "Əgər doğuşlararası müddət kifayət qədər olmazsa bu cür hamiləlikdən doğulan uşaqların azçəkili, fiziki qüsurlu olmaları ehtimalı böyük olur. Ailə planlaması bu zamanlarda qadınların köməyinə yetir. İndi tibbdə əsasən 3 qoruma vasitəsindən istifadə edilir ki, bunlar da prezervativ-örtüklər, qoruyucu dərmanlar və uşaqlıqdaxili spirallardır. Biz ən etibarlı və zərərsiz vasitə olan uşaqlıqdaxili spiralları məsləhət görürük. Bu üsulun tətbiqi zamanı uşaqlığın ağzı bağlanır və yumurtalarla spermaların birləşməsinin və hamiləliyin reallaşmasının qarşısı 98 faiz alınır".

Ginekoloq deyir ki, ölkəmizdəki abort statistikası qadınların hamiləliyin qarşısının almaq üçün heç bir vasitədən istifadə etmədiyini də təsdiqləyir: "Təsəvvür edin, rəsmi statistika ildə 35 min civarında abort olunduğunu deyir, qeydə alınmayan rəqəmləri də əlavə etsək ildə azı 50-60 min abort hadisəsi baş verdiyini düşünmək olar. Kobud dillə desəm, valideynlər öz ailə tərkiblərini istədikləri sayda saxlamaq üçün körpələrini qətl etdirirlər. Əslində çox qadın bilir qorunmağın yollarını, amma bəzisi qorxur ki, bu vasitələr zərərli ola bilər, bəziləri həyat yoldaşının təkidi ilə imtina edir. Amma elə qadın var ki, ildə 4-5 dəfə, eləsi var 8-9 dəfə aborta gedir, bunu zərər hesab eləmir. Halbuki, abort faktiki qətl hadisəsi olmaqdan əlavə, həm də ana orqanizni üçün son dərəcə təhlükəlidir. Tibbi ailərlər abort zamanı uşaqlığın divarına zərər verir və gələcəkdə qüsurlu uşaqların doğumuna səbəb olur".

Həkim deyir ki, qadınlarımız ailə planlaması barədə olduqca az məlumata malikdirlər: "Bu haqda bilənlər həm azdır, həm də daha çox paytaxtda və ölkənin digər böyük şəhərlərində yaşayanlardır. Rayonlarda və kənd yerlərində nisbətən az qadın bu barədə məlumata malikdir".

Məlumat üçün bildirək ki, Beynəlxalq Ailə Planlaması Federasiyasının 1995-ci ildə qəbul etdiyi "Nəsil artırma və cinsi haqlar" haqqında xüsusi bildirişi var. Həmin bildirişə görə bütün qadınların nəsil artırma zamanı sağlamlığını qorunmaq üçün qoruyucu vasitələrdən istifadə etmə hüququ var. Sözügedən bildirişə görə, qadınların ailə planlaması haqqında lazımlı məlumatlarla tanış olması və olunması da zəruridir.

### Sosioloq: "Bu strateji milli təhlükəsizlik məsələsidir"

"Altay" Sosial-iqtisadi Araşdırmalar Mərkəzinin (ASAM) rəhbəri, sosioloq Elçin Bayramlının fikrincə, ailə planlanması azuşaqlılığı təmin etmək üçün yox, uşaqlar arasındakı normal müddəti və uşaqların uyğun vaxtda doğulmasını təmin etmək üçün olmalıdır: "Azərbaycanda bütün tarix boyu azuşaqlı ailələr nadir olub. Yəni, 1 və ya 2 uşaq az sayılıb. 3-5-7 hətta daha çox uşaqlı ailələr çox olub. Müasir dövrdə həyat şəraitləri və sair problemlərdən ailələr 1-2 uşağa üstünlük verir ki, bu milli genefondumuz və demoqrafik vəziyyətimiz üçün təhlükəlidir. Çünki, bir xalqın yaşaması üçün ailələrdə minimal uşaq sayı 3 olmalıdır. Əks halda getdikcə əhalinin azalması, qocalması və gələcəkdə həmin xalqın yoxa çıxması baş verə bilər".

Sosioloq hazırki vəziyyətdə uyğun olan uşaq sayına da toxunub: "İndiki şərtləri nəzərə alıb deyə bilərəm ki, ideal variant 2-3-4 uşaqdır. Yəni, 2-dən az uşaqlı ailə normal ailə kimi qəbul olunmamalıdır. Yaxşı ola ki, ailələrin çoxu 3-4 uşaqlı olsun. Burada sosial faktorlarla yanaşı, mənəvi-psixoloji faktorların da böyük rolu var. Məsələn, kimlərsə deyə bilər ki, bəs ailələr 3-4 uşağı saxlaya bilmir, madi vəziyyət imkan vermir. Düzdür, bu səbəb də var. Lakin gəlin reallığa baxaq, çoxuşaqlı ailələrin az qala hamısı maddi təminatı yüksək olmayan ailələrdir. Əksinə, maddi təminatı yüksək olan ailələr 1-2 uşaqla kifayətlənir. Bu, xarici ölkələrdə də belədir".

ASAM sədri hesab edir ki, buna baxmayaraq, bu məsələnin həlli üçün sosial rifahın yaxşılaşdırılması vacibdir: "Belə ki, əksər ölkələrdə mövcud olan, bizdə Sovet vaxtı tətbiq olunmuş "uşaqpulu" yenidən bərpa olunmalıdır. Əgər dövlət bütün uşaqlara pul verə bilmirsə, onda heç olmasa, 3-cü uşaqdan başlayaraq ciddi məbləğdə birdəfəlik yardım və normal məbləğdə aylıq müavinət ödənməlidir. 5 və daha çox usagı olanlara avtomobil və mənzili yoxdursa mənzil verilə bilər. Əksər ölkələrdə belə edirlər. Bu tədbirlər həyata keçirilsə, sürətlə artan 1 uşaqlılıq, 2 uşaqlılıq problem aradan qalxa bilər. Bu strateji milli təhlükəsizlik məsələlərindən biridir".

Qeyd edək ki, Azərbaycanda 5 və daha çox uşaqlı ailələrin sayı 3 minə, 4 uşaqlı ailələrin sayı 125 minə yaxındır. 1 uşaqlı ailələrin sayı 400 min, 2 uşaqlı ailələrin sayı 53 min, 3 uşaqlı ailələrin sayı isə 260 min civarındadır. Statistikaya görə, 3 və daha çox uşaqlı ailələrin sayı getdikcə azalır, 1-2 uşaqlı ailələrin sayı isə artır. Bu artıq həyəcan təbilidir.

*Lalə Mehralı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

24 dekabr

## Messidən dünya rekordu: Peleni geridə qoydu!



***“Barselona”nın kapitanı Lioenel Messi daha bir rekorda imza atıb. Qol.az xəbər verir ki, 33 yaşlı hücumçunun rekordu La Liqanın 15-ci turunda “Valyadolid”lə səfər matçında qeydə alınıb.***

Messi 3:0 hesabı ilə qalib gəldikləri oyunda fərqlənməklə Kataloniya klubundakı qol sayını 644-ə çatdırıb. Bununla da o, bir klubda ən çox qol vuran futbolçu adına yiyələnib. Argentinalı futbolçu əfsanəvi Peleyə məxsus rekordu yeniləyib. Braziliyalı keçmiş hücumçu ölkəsinin “Santos” klubunda 643 qol vurub.

## Məşhur həkim “buzlu şüşə” haqqında gizli sirləri açdı!



***Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Şüa diaqnostikası şöbəsinin müdiri, radioloq Aydın Əliyev koronavirusun səbəb olduğu “buzlu şüşə”, “buzlaşma”, “kristallaşma”, “buz kristalları” sözlərinə aydınlıq gətirib. Radioloq bu sözlərin hamısının xəstəlikdə istifadə olunmasının yanlış olduğunu qeyd edib. Həkim bildirib ki, KT müayinəsində aşkar edilən dəyişikliyin adı “buzlu şüşə mənzərəsi”dir:***

“Bu, buzlaşma, kristallaşma, buz kristalları deyil! Bu, görüntüdür, ələmətdir və COVID-19 xəstəliyindən illər öncədən radioloqların demək olar ki, hamısının istifadə etdiyi bir termindir. KT və rentgen müayinəsində istifadə edilən x-şüaları (Rentgen şüaları) normal, hava ilə dolu ağciyərlərdən rahatlıqla keçir və bu, şəffaflıq adlanır. Çünki normal ağciyərlər x-şüaları üçün şəffaf mühitdir. Bəzi ağciyər xəstəliklərində, eləcə də ağciyərlərdə dəyişiklik yaradan koronavirus xəstəliyində (əgər virus yuxarı tənəffüs yollarından aşağı tənəffüs yollarına - kiçik bronxlara, alveollara, oradan da damarlara keçirsə) bronx divarlarında iltihabi qalınlaşma, alveollarda iltihab və digər dəyişikliklərlə əlaqədar olaraq oradakı havanın yerinə maye toplanır. Əgər bu proses ağciyərlərdə kiçik sahələri əhatə edirsə, yeni şüaların keçməsinə çox maneə yaratmırsa, rentgen müayinəsində ağciyərlər aldadıcı normal görünə bilər. Ağciyərlərdəki havalılığın azalması 20%-dən çox olmalıdır ki, rentgen müayinəsində aşkar edilə bilsin. KT müayinəsində isə həssaslığı çox olduğundan həmin o alveollardakı havanın yerinə daxil olmuş az miqdarda maye və iltihabi qalınlaşmaları göstərir.

İndi görək necə göstərir? Bu dəyişikliklər şüaların bir hissəsinin ağciyərdən keçməsinə mane olur, həmin o maye və qalınlaşmış hissələr şüaların bir hissəsini udur, absorbsiya edir. Bunun nəticəsində əvvəldə qeyd etdiyimiz şəffaflıq təmiz deyil, bulanıq görsənir. Sanki təmiz şüşə kimi yox, buzlanmış şüşə kimi görünür və “buzlu şüşə mənzərəsi” adlanır. Yəni ağciyərlərdə heç bir buzlaşma, kristallaşma getmir! Obrazlı şəkildə belə adlanır. Proses dərinləşərsə, daha böyük sahəni əhatə edir və alveollardakı mayenin, qalınlaşmaların miqdarı və zədələnmiş sahələrin sayı artarsa, o zaman konsolidasiya - Rentgen və KT-də intensiv kölgəliklər görünür. Yəni konsolidasiya-intensiv kölgəliklər görüntüsü “buzlu şüşə mənzərəsi”ndən daha ağır vəziyyətdir. O ki, qaldı % dərəcəsinin göstərilməsinə, burada heç bir problem yoxdur, əksinə “buzlu şüşə mənzərəsi”nin % dərəcəsinin göstərilməsi xəstəyə və müalicə həkiminə kömək-dir”./Publika.az

## Həkim-infeksionist: “Meyvə-tərəvəzlər 30 saniyə ərzində soyuq su altında Yuyulmalıdır”



***Yeni növ koronavirus (COVID-19) infeksiyasının sürətli yayılmasına səbəb olan amillər çoxdur. Maskadan düzgün istifadə qaydalarının pozulması, dezinfeksiyanın vaxtı-vaxtında aparılmaması, eyni zamanda şəxsi gigiyena qaydalarına əməl edilməməsi və alınan məhsulların təmizliyinə laqeyd yanaşılması virusun yayılma tezliyini sürətləndirir.***

Ətrafımızda olanlardan gözlədiyimiz məsuliyyətli davranışı ilk növbədə hər kəs özü göstərməlidir. Həkim-infeksionist Aytən Ziyadova deyib: “Meyvə-tərəvəzlər 30 saniyə ərzində soyuq su altında yuyulmalıdır və bu zaman hansısa kimyəvi maddələrdən, sabun və fırçalardan istifadə olunamamalıdır, çünki onların içərisində olan kimyəvi maddələrin orqanizmə daxil olması qida zəhərlənməsinə səbəb ola bilər. Göy-göyərtilər 10-15 dəqiqə ərzində ilıq suda saxlanılandan sonra yuyulub süfrəyə verilməlidir”.

Qidaların düzgün şəkildə yuyulub təmizlənməsi gün ərzində açıq vitrinlərdə qalması və ona çoxlu toxunuşun olması ilə əlaqədardır. Virus daşıyıcısı olan insanların təması da yoluxmaya gətirib çıxara bilər. Ona görə də məhsula birbaşa toxunmamaq, satıcının köməyindən istifadə etmək daha düzgündür.

“Koronavirus pandemiyası zamanı virus hava-damcı üsulu ilə daha çox yayıldığına görə havada qalmır, lakin istənilən məişət əşyaları və qida məhsullarının üzərinə çökür. Ona görə həmin məhsulların yuyulmadan istifadəsi çox asanlıqla əvvəlcə yuxarı tənəffüs yolları, dörd-beş gün sonra isə aşağı tənəffüs yollarına enərək COVID pnevmaniyası yaradaraq ağırlaşmaya aparıb çıxarır”. Bəzən xırda diqqətsizlik böyük fəsadlara səbəb olur. Gigiyenik qaydalara və təmizliyə düzgün əməl edilməsi xəstəliyə yoluxmadan yaşamağı təmin edə bilər.

## Sinoptiklər xəbərdarlıq edirlər...



Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, dekabrın 23-dən 25-i səhərədək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə intensivləşəcəyi gözlənilir.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, dekabrın 24-ü axşamdan 25-i səhərədək şəhərətrafı ərazilərdə yağıntının sulu qara keçəcəyi ehtimalı var. Şimal-qərb küləyinin sürəti 15-18 metr/saniyə olacaq, bəzi yerlərdə arabir saniyədə 20-25 metrədək güclənəcək.

Dekabrın 23-dən 25-i səhərədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, sürəti 15-20 metr/saniyə olacaq, bəzi yerlərdə arabir saniyədə 23-28 metrədək güclənəcək. Dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600